YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
8 mart 2025-ci il, şənbə
№ 043 (6871)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!



# Mehriban ürək

## Güclü müasirlik duyğusu, yenilikçi təbiətə sahib, fədakar Azərbaycan Qadını!

Bax səh. 2

# Azərbaycanın yeni siyasi olimpi: suverenlik və dialoqun zəfəri

Bax səh. 3




Bax səh. 3

## Xocalıda, Xankəndidə birgə addımlayan siyasi partiyalar

## Birlik və bərabərliyin simvolu

Tarixin ən şanlı səhifələrini yazan Azərbaycan Respublikasında suverenlik və konstitusiya ili qeyd olunur. Addım-addım bizi zəfərə aparan yolu bəzəyən daşlar Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik və uzaqgörən diplomatiyası nəticəsində zərgər dəqiqliyi ilə bir-bir yerinə qoyulub. Xarici siyasətimizdəki böyük addımlar xalq-dövlət birliyinin və həmrəyliyimizin ən parlaq təzahürləridir. Təbii ki, bu təzahürlər ölkə daxilindəki siyasi mühitə də təsirsiz ola bilməzdi.

Artıq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə ölkədə fəaliyyət göstərən siyasi partiyalar arasında yeni münasibətlər sistemi formalaşdırılmışdır. Dialoq imkanlarının dəyərləndirilməsi, konstruktiv əməkdaşlığın təşviq edilməsi və milli maraqlar uğrunda birgə fəaliyyət bu sistemin əsas xarakterik xüsusiyyətləridir. Xüsusilə də, son beş ildə bu istiqamətdə çox mühüm addımlar atılıb. Belə ki, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşkilatçılığı ilə siyasi partiyalar üçün formalaşdırılan dialoq masası etibarlı tərəfdaşlığın yaradılmasına zəmin yaradan mühüm addımlardan biridir. Keçirilən görüşlər çərçivəsində siyasi platformada dinləmək və dinlənilmək mədəniyyətinin formalaşdırılması çox mühüm nailiyyətdir. Məhz belə sağlam münasibətlərin və konstruktiv əməkdaşlığın təzahürü olaraq siyasi partiyaların rəhbərlərinin mütəmadi şəkildə işğaldan azad olunmuş ərazilərə səfərləri də təşkil olunur. İndiyə qədər sayca beş belə səfər təşkil...

Bax səh. 4




Bax səh. 4

## Parlament Birinci vitse-prezident Mehriban Əliyevanı təbrik edib

## "Ey qadın! Ey kəmali-ülviyyət!"...

Qadın deyəndə göz önünə fədakarlıq, zəriflik, incəlik gəlir. Qadınlar həyatımızın mənası, gözəlliyidir. Ana məfhumu doğma vətənin, Vətən torpağının təcəssümüdür. Qadın adı, ana adı vətənimizdə hər zaman uca tutulmuşdur.

Tarix boyu qadınların həyat tərzində onlara məhdudiyyət qoyan bir anlayış mövcud olmuşdur. Müxtəlif mədəniyyətlərə mənsub olan qadınların ortaq xüsusiyyəti kişilərin daha üstün tutulduğu bir cəmiyyətdə yaşamaları idi. Bu isə onların həm təhsillərində, həm də haqlarını tələb etmələrində problemlər yaradırdı.

Xeyriyyəçi...

Bax səh. 2

## Rəqəmsal transformasiya...

Bu günlərdə Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) 2024-cü ilin yekunlarına həsr olunmuş mətbuat konfransı baş tutub. Tədbirdə iştirak edən mərkəzin icraçı direktoru Fariz Cəfərov bildirib ki, Azərbaycanda süni intellektin tətbiq edildiyi sahələrin genişlənməsi gözlənilir.

F.Cəfərov süni intellektin dinamik inkişaf etdiyini vurğulayıb: "Artıq ölkədə bir sıra sektorlar süni intellekti tətbiq edir. Dünyada bu texnologiya səhiyyə sahəsində də geniş istifadə olunur. Məsələn, süni intellekt proqramları rentgen analizlərinin nəticələrini oxuya...

Bax səh. 5

## Brüsseldə yarımçıq razılıq

Formalaşan yeni qlobal nizamda yer tutmaq üçün fərqli yollara əl atan Avropa İttifaqı yenidən "başladığı yerə" qayıtmağa qərar verir. Belə ki, ABŞ ilə Rusiyanın Ukrayna kartı üzərindən yaxınlaşmasının fonunda Brüssel də varlığını hiss elətdirməyə çalışır. Bunun üçün isə Aİ "rəqiblər"in ortaq nöqtəsini özünə cəlb etmək niyyətinə düşüb. Başqa sözlə, Ukrayna danışıqlarında masada yer almaq üçün Brüssel Kiyev üzərindən təzyiq vasitələrini işə salır. Heç bir işə yaramayan Paris toplantısı, qərarsızlıqla müşayiət edilən London yığıncağının ardından Aİ bu dəfə Brüsseldə "görüş" təyin etdi. Cümə...

Bax səh. 6

## Türkiyədə inflyasiya azalır

Türkiyə Mərkəzi Bankı yanında Pul Siyasəti Komitəsi martın 6-da keçirdiyi iclasda uçot dərəcəsini 2,5 bənd azaldaraq 45 faizdən 42,5 faizə endirib. Qərar ölkədəki faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəf diapozunu, həmçinin, daxili və xarici amillərinin əlverişli olması ssenarisi nəzərə alınmaqla verilib. Mərkəzi Bankın sədri Fatih Karahanın sözlərinə görə, 2025-ci il başlayandan uçot siyasəti ilə bağlı ümumilikdə 3 qərar verilib və bu qərarla birlikdə faiz stavkası ümumilikdə 7,5 bənd azaldılıb. Mövcud mühit inflyasiya ilə bağlı risklərin azalmağa doğru getdiyini şərtləndirdiyindən...

Bax səh. 7



## Atəşkəs və sülh...

### 3 gün sonra diqqət yenə Ər-Riyada yönələcək

Bax səh. 6



## Təxribatların izi ilə...

Bax səh. 5

# Daim ülvi amallarla yaşayan Azərbaycan qadınları...

**Bu gün onların - həyatımızın bəzəyi sayılan əziz qadınların bayramıdır. Əslində isə qadınlar elə bir əvəzolunmaz dəyərdirlər ki, onlar ildə yalnız bir dəfə deyil, hər gün sevinməyə, hər gün səmimi təbriklər qəbul etməyə layiqdirlər. Prezident İlham Əliyev bu günlərdə 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına ünvanladığı təbrikində həyatın bütün sahələrində qadınların böyük rolunu yüksək dəyərləndirərək vurğulayıb: "Azərbaycan qadınları hər zaman cəmiyyətimizin mənəvi dayağı olmuş, daim ülvi amallarla yaşamışlar".**



## Heydər Əliyevin qadınlara həssas yanaşması

Bu gün müstəqil Azərbaycanda qadınlara yüksək dəyər verilir. Bu siyasətin əsası isə xalqın təkidli tələbi ilə 1993-cü ilin yayında ikinci dəfə Azərbaycanın rəhbərliyinə qayıdan Heydər Əliyev tərəfindən qoyulub. Onun rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycanın ilk Konstitusiyasında qadınlara geniş hüquqlar verilib.

1995-ci il Azərbaycan qadınları üçün əlamətdar olub. Belə ki, həmin ildə Heydər Əliyevin imzaladığı müvafiq fərmana əsasən Azərbaycan BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğvi" Konvensiyasına qoşulub. Müqayisə üçün bildirək ki, bu gün dünyada bəzi inkişaf etmiş dövlətlər hələ də bu konvensiyaya qoşulmayıblar. Prezident Heydər Əliyevin 1998-ci il 14 yanvar tarixli fərmanı ilə Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Dövlət başçısı ölkənin siyasi, sosial-iqtisadi və mədəni həyatında qadınların rolunu artırmaq, Azərbaycan Respublikasının qoşulduğu yuxarıda bəhs etdiyimiz Konvensiyadan irəli gələn öhdəliklərini daha geniş miqyasda həyata keçirmək üçün 1998-ci il 14 yanvar tarixində "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" sərəncam imzalayıb. Prezident Heydər Əliyev tərəfindən 6 mart 2000-ci il tarixində imzalanan fərman isə "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" adlanır. Fərmanla Azərbaycan Respublikasının bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla qadınların rəhbərlik səviyyəsində kişilərlə bərabər təmsil olunmalarının təmin edilməsi tapşırılıb. Sonrakı illərdə Heydər Əliyevin təşəbbüsü ilə "Azərbaycan Respublikasında Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı" qəbul edilib.

## Qadınların bütün sahələrdə iştirakçılığı genişlənir

Ölkəmizdə qadınlara həssas yanaşma Prezident İlham Əliyev tərəfindən eyni ardıcıllıqla davam etdirilir. Respublikamızda dövlət başçısının siyasi iradəsi əsasında qadınların bütün imkanlara çıxışının təmin olunması məqsədilə hüquqi baza getdikcə daha da möhkəmləndirilir. Bu kontekstdə ölkə Prezidentinin təşəbbüsü ilə 2006-cı ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunun qəbul edilməsini, elə həmin il dövlət başçısının müvafiq sərəncamı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi kimi yenidən formalaşdırılmasını xüsusi qeyd edə bilərik.

Belə ardıcıl siyasətin nəticəsidir ki, ölkəmizdə qadınların bütün sahələrdə iştirakı genişlənir. Bu gün ölkə əhalisinin ümumi sayının 50 faizdən çoxunu qadınlar təşkil edir. Respublikanın ümumi təhsil müəssisələrində müəllimlərin 82,7, orta ixtisas təhsil müəssisələrində 79,4, ali təhsil müəssisələrində 58,7 faizi, həkimlərin isə üçdən ikisi qadınlardır. Qadınların elmin inkişafında da müstəsna rolu vardır. Ölkə üzrə elmi işçilərin 59,2 faizini qadınlar təşkil edir. Eyni zamanda, dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi 29,4 faiz, fərdi sahibkarlar arasında isə 22,7 faizdir.

*Mübariz FEYİZLİ*

# Mehriban ürək

## Güclü müasirlik duyğusu, yenilikçi təbiətə sahib, fədakar Azərbaycan Qadını!

**Dünyada ölkələrin yüksəksəviyyəli rəsmilərinə xüsusi etiket qaydaları çərçivəsində xitab olunur. Azərbaycanın birinci xanımı, Birinci vitse-prezident Mehriban Əliyeva ilə görüşlərdə isə adətən rəsmi etiket qaydaları pozulur, insanlar ona sadəcə "bizim Mehriban" deyə müraciət edirlər. Bu sadə xitab Azərbaycan cəmiyyətinin Mehriban xanım Əliyevaya böyük məhəbbətini, səmimi münasibətini ifadə edir.**

## Xeyirxahlığa, humanizmə çağırış

Azərbaycan qadınının ən xarakterik cəhəti olan xeyirxahlıq, humanizm, xoş məram Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın həyatından və fəaliyyətindən qırmızı xətt kimi keçir. Əlamətdar tarixlərdə, milli bayramlarda Mehriban xanım Əliyeva bir qayda olaraq uşaqların, ələlxüsus da fiziki qüsurlu və yaxud valideyin himayəsindən məhrum qalmış uşaqların yanında olmağa tələsir. Belə tədbirlərdə Mehriban xanım Əliyeva yüksək statusuna baxmayaraq, çox sadə davranır - uşaqlarla rəqs edir, onların gələcək planları ilə maraqlanır, viktorinalara qatılır, balaca dostlarını öz əlləri ilə bişirdiyi şirniyyatlara qonaq edir. Onun təşəbbüsü ilə Heydər Əliyev Fondu uşaqların və gənclərin təhsilinə dəstək məqsədilə bir neçə uğurlu proqram reallaşdırır. İndiyədək Heydər Əliyev Fondunun icra etdiyi təkcə "Uşaq evləri və internat məktəblərinə dəstək" layihəsi çərçivəsində 40-dan çox internat və uşaq evi yenidən qurulub. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bir neçə "Məzun evi" tikilərək uşaq evləri və internat məktəblərinin məzunu olan gənclərin istifadəsinə verilib.

Mehriban xanım Əliyeva daim özündə xeyirxahlığı, humanizm dəyərlərini ehtiva edən təşəbbüslər irəli sürür. İndiyədək onun təşəbbüsü ilə bir neçə dəfə amnistiya aktı qəbul olunub. Əsasən əlamətdar tarixlər, milli bayramlarımız ərəfəsində qəbul olunan bu amnistiya aktlarının icrası nəticəsində 40 minə yaxın məhkum müxtəlif növ cəzalarından azad edilib. Bütün bunlarla Mehriban xanım Əliyeva xeyirxahlığa, humanizmə çağırış edir.









# "Ey qadın! Ey kəmali-ülviyyət!"...

*"Ey qadın! Mənbəyi-nəzakətsən,*
*Sən təcəssüm edən lətafətsən!"*
*( Məhəmməd Hadi)*



Qadın deyəndə göz önünə fədakarlıq, zəriflik, incəlik gəlir. Qadınlar həyatımızın mənası, gözəlliyidir. Ana məfhumu doğma vətənin, Vətən torpağının təcəssümüdür. Qadın adı, ana adı vətənimizdə hər zaman uca tutulmuşdur.

Tarix boyu qadınların həyat tərzində onlara məhdudiyyət qoyan bir anlayış mövcud olmuşdur. Müxtəlif mədəniyyətlərə mənsub olan qadınların ortaq xüsusiyyəti kişilərin daha üstün tutulduğu bir cəmiyyətdə yaşamaları idi. Bu isə onların həm təhsillərində, həm də haqlarını tələb etmələrində problemlər yaradırdı.

Xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev 1901-ci ildə Bakı şəhərində müsəlman Şərqində ilk qızlar məktəbi açmışdır. Bununla o kişi və qadın bərabərliyində mühüm addım atmışdır. Özünün təhsilsiz olmağına, həm də o dövrün yerli ruhanilərinin bu işə maneçilik törətməsinə baxmayaraq, Hacı Zeynalabdin Tağıyev qızların təhsil almalarının vacib olduğunu vurğulamışdır. Bu böyük xeyriyyəçi insan həmçinin gəncləri öz hesabına oxudururdu. Zeynalabdin Tağıyevin dediyi kimi, "Bir kişinin təhsil alması, yalnız savadlı bir insanın olması deməkdir. Amma bir qadının təhsil alması gələcəkdə həm savadlı qadın, həm də dünyagörüşlü bir ana deməkdir". Bəli, həqiqətən də bir qadının təhsil alması onun cəmiyyət üçün savadlı övlad yetişdirməsi deməkdir.

Azərbaycan qadını tarixin bütün mərhələlərində milli-mənəvi dəyərlərimizin əsas daşıyıcısı olmuşdur. Güclü, öz ayaqları üstündə dura bilən, elmli, intellektual qadın - ağıllı övlad, sağlam ailə birliyi, qüdrətli dövlət, uğurlu gələcək deməkdir. Bir qadının təhsil alması, gələcəkdə savadlı, dünyagörüşlü bir ana deməkdir.

Azərbaycanda qadına - anaya daim böyük hörmət bəslənib. Müdrik hökmdarlarımız, cəsur sərkərdələrimiz, istedadlı şairələrimiz və sənətkar qadınlarımızın adları çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb. Elmdə, təhsildə, mədəniyyətdə, səhiyyə və digər sahələrdə qazandığı nailiyyətlər Azərbaycan qadınının çox böyük potensiala malik olduğunu hər zaman təsdiq etmişdir.

Azərbaycanda da "8 Mart - Beynəlxalq Qadınlar Günü" geniş qeyd edilir. Azərbaycan qadını parlaq zəkası, müdrikliyi, vəfası, yüksək analıq keyfiyyəti ilə hər zaman seçilmiş, xalqımızın adını daima uca tutmuşdur.

Ulu öndərimiz Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasında Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" 2000-ci il 6 mart tarixli fərmanın icrası ilə əlaqədar olaraq aparılan uğurlu işlərdən belə nəticəyə gəlmək olar ki, respublikada qadınların təhsil, sahibkarlıq fəaliyyəti, əvvəlki illərə nisbətən getdikcə yüksəlişə doğru inkişaf edir. Vaxt ötdükcə, bütün dünyada olduğu kimi, Azərbaycanda da qadının rolu daha da artır, o, iqtisadi, mədəni həyatın fəal iştirakçısına çevrilir.

Ümummilli Lider Heydər Əliyev 8 Mart Beynəlxalq Qadınlar bayramı ilə bağlı deyirdi: ***"Bu bayram, doğrudan da bizim bütün bayramlar içərisində ən gözəl bayramdır. Çünki bu qadınlara həsr olunubdur. İnsan cəmiyyətində qadının rolu, əhəmiyyəti məlumdur. Qısaca onu demək olar ki, qadınsız insan yoxdur, qadınsız həyat yoxdur. Qadınlar cəmiyyətdə, həyatda göstərdikləri bütün başqa xidmətlərlə yanaşı, ona görə ən yüksək qiymətə layiqdirlər ki, onlar anadırlar..."***

Bu gün Ümummilli Lider Heydər Əliyevin 2000-ci ildə imzaladığı "Azərbaycan Respublikasında Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərmandan irəli gələn məsələlərin həllini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir.

Qadınlarımız ölkənin bütün ali orqanlarında böyük əzmlə, məsuliyyətlə, fədakarlıqla çalışırlar.

Bu gün Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, YUNESKO-nun və İSESKO-nın xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva həm ölkəmizdə, həm də vətənimizdən uzaqlarda öz bacarığı, əvəzsiz xidmətləri ilə Azərbaycan xanımlarını ən gözəl şəkildə təmsil edir. Mən deyərdim ki, Mehriban xanım Əliyeva Azərbaycan qadınının, Azərbaycan xanımının simvoluna çevrilib. Onun xeyriyyəçiliyi, humanizmi, bəşəri prinsiplərə söykənən, sərhəd tanımayan fəaliyyəti nəinki Azərbaycan qadınları, eləcə də dünya qadınları üçün əsl nümunədir.

Qadın! Anadır, bacıdır, övladdır, yardır, yoldaşdır - həyatdır qadın! Çiçəkdən zərif, incə, poladdan möhkəm, uca dağ vüqarlı Azərbaycan qadını! Ürəyində dağlar boyda dərdi olsa da, dağlar kimi qürurlu şəhid anasıdır Azərbaycan qadını... Şəhiddir, qazidir, Milli qəhrəmandır Azərbaycan qadını! Dili laylalı, bayatılı, qəlbi bulaq kimi sözlü-nəğməli - şairdir Azərbaycan qadını! Şəninə şeirlər yazılan, özü də ən gözəl şeirdir Azərbaycan qadını! Böyük şairimiz Məhəmməd Hadi gözəl söyləmişdir:

**"Ey qadın! Ey cəmali-hürriyyət!**
**Ey qadın! Ey kəmali-ülviyyət!**
**Səni tərif məncə qabilmi?**
**Bu qələm hüsnünə müqabilmi?"**

*Nuranə Çələbi,*
*AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu, "Ərəbdilli əlyazmaların tədqiqi" şöbəsi*

## Qadınlar bayramı ərəfəsində Gəncəyə səfər

Mehriban xanım Əliyeva budəfəki qadınlar bayramı ərəfəsində də öz ənənəsinə sadiq qalıb. Belə ki, Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva martın 6-da Gəncə şəhərinə səfər ediblər. Bu səfər də bir sıra səmimi görüşlərlə yadda qalıb. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılan abidəsinin ziyarəti ilə başlayan səfər çərçivəsində Mehriban Əliyeva və qızı Arzu Əliyeva Gəncə şəhər 37 nömrəli tam orta məktəbdə Heydər Əliyev Fondu tərəfindən aparılan təmir-bərpa işləri ilə tanış olublar, Gəncə şəhəri 40 saylı körpələr evi-uşaq bağçasında olarkən Birinci vitse-prezident bağçada məktəbəqədər təhsilin və uşaqların təlim-tərbiyəsinin yüksək səviyyədə təşkili məqsədi ilə müvafiq tapşırıqlar verib. Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Ermənistan silahlı qüvvələrinin 2020-ci ildə Gəncə şəhərinə raket hücumları nəticəsində həlak olan dinc sakinlərin xatirəsini əbədiləşdirmək üçün inşa edilən Gəncə Memorial Kompleksinin layihəsi ilə də tanış olublar. Birinci vitse-prezident səfər çərçivəsində Gəncə Şəhər Birləşmiş Xəstəxanasının Perinatal Mərkəzində olub. Tibb müəssisəsindəki şəraitlə tanışlıq zamanı Perinatal Mərkəzə Heydər Əliyev Fondu tərəfindən küvəzlər və ultrasəs müayinə aparatı hədiyyə olunub. Gəncəyə səfər zamanı Mehriban Əliyevanın, Şah Abbas və Hüseyniyyə məscidlərində, eləcə də Aleksandr Nevski adına Rus Pravoslav kilsəsində olması isə Azərbaycanın tolerantlıq ənənələrinə sadiq qalmasının növbəti təsdiqidir.



*Mübariz ABDULLAYEV*





# Azərbaycanın yeni siyasi olimpi: suverenlik və dialoqun zəfəri



Azərbaycan xalqı son illərdə tarixinin ən qürurlu anlarını yaşayır. 2020-ci ildə Vətən müharibəsindəki qələbə ilə suverenlik bayrağını göylərə qaldıran ölkəmiz, bu gün təkcə torpaqlarını deyil, siyasi arenada birliyini də zəfərlərlə bəzəyir. Prezident İlham Əliyevin qətiyyəti ilə başlayan bu yeni səhifə, hərbi gücümüzün möhtəşəm təsdiqi ilə yanaşı, artıq siyasi dialoqun səsi ilə də yazılmağa davam edir. Xankəndi, Xocalı və Əsgərana səfər edən siyasi partiya liderlərinin birgə addımları, bu prosesin ürəkaçan sübutudur. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması isə qalibiyyətin daha mühüm, konstitusion nəticəsidir- Azərbaycanın öz gücünü dünyaya bir daha göstərəcəyi anın, hüququn ifadəsidir.

İlham Əliyev bu olimpiadanın əsas qəhrəmanıdır. O, 44 gün ərzində düşməni diz çökdürərək torpaqlarımızı geri qaytardı. O, bütövlükdə ölkənin bütün təbəqələrinin şərtsiz lideri kimi eyni nöqtədə dayanmayaraq, siyasi meydanın tanınmış simalarını da qələbəsi ətrafında daha möhkəm formada topladı.

Xankəndidə partiya rəhbərlərinin görüşü, əslində bir yumruq kimi birləşən Azərbaycanın simvoludur. Bu, sadəcə səfər deyil, keçmişin yaralarını sağaldıb gələcəyə ümidlə baxan bir xalqın manifestidir. Çox az müddət bundan əvvəl Xankəndi meydanında ölkəmizi parçalamış, xalqımızın qanına susamış separatçıların səsi eşidilir, qondarma parad oyunları təşkil edilir, əzəli-əbədi yurd yerlərimizdə bizə gözdağı verirdilər. Bu gün Xankəndi meydanı elə bir rol oynayır ki, siyasi dialoq burada soyuq protokollardan çıxıb, isti bir həmrəylik səhnəsinə çevrilib. Əsgəranın daşlarında tarix, Xocalının torpağında ədalət, Xankəndidə isə qürur var - və bu üçü birləşərək Azərbaycanı yenidən doğulmuş bir ulduza çevirir, Bakıda isə Xankəndi meydanında bir zamanlar cığallıq edən düşmən terrorçuları ədalət mühakiməsi qarşısında cavab verirlər.

2025-ci il isə dövlət olimpiadasının final mərhələsidir. Konstitusiyamızın 30 illik şərəfi və qələbəmizin 5 illik coşqusu ilə biz dünyaya deyirik ki, "Biz buradayıq, birik və güclüyük!" Xocalının bərpa olunan evləri, Xankəndinin turizm xəyalları - bunlar suverenliyin sadəcə xəritədəki xətlər deyil, həyatda nəfəs alan bir reallıq olduğunu göstərir. Dialoqla toxunan bu zəfər, Azərbaycanı təkcə regionun lideri deyil, həm də birlik dərsi verən bir ölkə edir.

İlham Əliyev adı Azərbaycanın müasir tarixinin qürur səhifələrində qızıl mürəkkəblə yazılıb. O, təkcə torpaqlarımızı işğalın zəncirlərindən qurtarmadı, həm də suverenliyimizi siyasi arenada, iqtisadi meydanda və mədəni səhnədə nəhəng bir abidəyə çevirdi. Xankəndidə hərbi paradın üçüncü ildönümündə Zəfər meydanında toplanan siyasi partiya rəhbərləri, bu qələbənin sadəcə dövlətin deyil, hər bir azərbaycanlının ürəyindən doğan bir zəfər olduğunu ifadə etdilər. İlham Əliyev faktoru, xalqımızı parçalanmışlıqdan xilas edib vahid bir ailəyə çevirən sehrli bir toxunuşa döndü. Onun təşəbbüsləri ilə siyasi partiyalar arasında dialoq körpüləri quruldu, müxalifət və iqtidar bir stol arxasında əl-ələ verdi. Bu, suverenliyimizin təkcə sərhəd dirəklərində deyil, daxildəki həmrəylik ocağında da alovlandığını göstərir. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması isə bu ruhun bayrağına çevrilib.

Həqiqətən də İlham Əliyev sadəcə lider deyil, o, Azərbaycanın yenidən doğuluşunun memarıdır. 2020-ci ildə 44 günə sığan Vətən müharibəsi, onun qətiyyətinin və uzaqgörənliyinin sübutu oldu. Torpaqlarımız işğaldan azad edildi, amma O, burada dayanmadı - o, suverenliyi dövlət həyatının, millətin həyatın hər sahəsinə yaydı. Xankəndidəki Zəfər meydanı indi təkcə parad meydanı deyil, xalqın birliyinin səhnəsidir. Bu, Əliyevin yaratdığı bir möcüzədir - o, siyasəti soyuq mübahisələrdən çıxarıb, isti bir Vətən sevgisinə çevirdi. Xocalının yenidən qurulması, Əsgəranın tarixi abidələrinin dirçəlişi və s. bunlar onun imzasını daşıyan gələcək planlarıdır.

Əliyevin dialoq təşəbbüsləri, Azərbaycanı regionda fərqli bir ölkəyə çevirib. Müxalifətlə iqtidarın birgə səfərləri, sadəcə protokol görüşləri deyil, xalqın gücünü bir yumruqda birləşdirən addımlardır. Xankəndidən gələn görüntülər, siyasi rənglərin təkcə bayraqda deyil, ideallarda da birləşdiyini göstərir. Bu, suverenliyin yeni tərifidir - sərhədləri qorumaqla yanaşı, cəmiyyəti qucaqlamaq. 2025-ci ilin adı budur. Konstitusiyamızın 30 illik yubileyi, qələbəmizin 5 ili ilə birləşərək dünyaya bir mesaj verir: Azərbaycan təkcə torpaq deyil, bir ruhdur!

İqtisadi dirçəliş də Əliyevin suverenlik vizyonunun parçasıdır. Xankəndini turizm mərkəzinə çevirməsi, iş yerlərinin açılması - bunlar sadəcə plan deyil, xalqın gələcəyə inamla baxmasının təminatının adıdır. Əliyev, suverenliyi kağız üzərindəki hüquqdan çıxarıb, hər kəsin həyatına toxunan bir gerçəkliyə çevirdi. Onun liderliyi ilə siyasi dialoq, partiyaları rəqibdən çox, idealların yol yoldaşına çevirdi.

Azərbaycanda siyasi dialoq artıq bir ritualdan çox, canlı bir hərəkata çevrilməyə başlayıb. Prezidentin dəstəyi ilə bu yol hər gün yeni rənglər qazanır. Xankəndiyə, azad torpaqlara edilən səfərlər, siyasi partiya liderlərinin beşinci birgə addımı oldu və bu, sadəcə görüş deyil, gələcəyə atılan bir körpüdür. Əsgəran qalasının daşlarında tariximizi eşidən, Xocalıda soyqırımı memorialının yüksəlişinə şahid olan, Xankəndidəki Zəfər meydanında fikir paylaşan bu liderlər, dialoqun əsas siamlarına çevrilirlər. Fikir ayrılıqları ola bilər, amma milli maraqlar və dövlətçilik kimi dəyərlər hamını bir bayraq altında toplayır.

Prezident Administrasiyasından Ədalət Vəliyevin "vətənpərvərlik və dövlətçilik bizim təməlimizdir" sözləri, bu hərəkatın kökünü, özülünü açıqlayır. Siyasi partiyalar ölkənin, ortaq məqsədə - Azərbaycanın yüksəlişinə xidmətə qoşulublar.

Yeni siyasi mədəniyyət başqa formada bu dialoqla özünü büruzə verməkdədir.

Azad torpaqların nəqliyyat coğrafiyası da çox qəribə bir formadadır, yollar siyasi coğrafiyanın xəritəsini yaşadaraq, qalibiyyəti hiss etdirir, Xocalıya həyat qayıdır, Xocavəndin fatehlərinin "əl işləri" yaxın keçmişin qürurunu bir daha oyadır, Şuşada Qarabağ tarixinin zirvəsinə şahid olduqdan sonra mütləq bu mühüm marşrut dövlətimizin baş planında tamamlanmalıdır. Xankəndi - Qarabağ xanlarının evi, yurdu, 300 illik tarixin qısa məndəricatı, erməni millətçiliyinin vurduğu yaralar və nəhayət, qalibiyyətin gətirdiyi təntənə. Burda artıq gənclik, uşaqlar, təhsil, elm, univeristet- bir sözlə, qaynar həyat müşahidə edilməkdədir. Qarabağın azadlığı bizim Suveren azadlığımızı əbədiyyən təsis etmiş oldu.

2025-ci ilin "Konstitusiya və Suverenlik İli" sadəcə təqvimdəki bir rəqəm deyil, Azərbaycanın özünü yenidən tapdığı bir dönüm nöqtəsidir. 1995-ci ildə doğulan Konstitusiyamızın 30 illik yubileyi və 2020-ci ildəki zəfərimizin 5-ci şənliyi bu ili qızıl hərflərlə bəzəyir. Suverenlik ili bizə şərəfli bir mesaj ötürür: müstəqilliyimiz təkcə cəbhədə qılıncla qazanılmayıb, siyasi birliyin və iqtisadi yüksəlişin toxumlarıyla çiçəklənib. Dağların sərin nəfəsi, meşələrin yaşıllığı, çayların şırıltısı - bu ərazilər yeni hotellər, istirahət məkanlarıyla həm xalqımıza, həm də qonaqlara qucaq açacaq. Bu, sadəcə maddi olaraq da qazanmaq deyil, Qarabağın ürəyinin yenidən atmasıdır.

Bu ilin zərurəti keçmişlə gələcəyin kəsişməsindədir. Biz yaraları sararkən, önümüzə daha böyük ümidlə baxırıq. 2020-ci ilin qələbəsi torpaqlarımızı geri qaytardı, amma 2025-ci il bu torpaqların böyük qayıdışla daha da yaşamla dolacağını vəd edir.

Xankəndi səfərindən sonra siyasi liderlərin dilindən düşməyən möhtəşəm fikirlər, təəssüratlar Azərbaycanın pozitiv gündəmini təşkil edir. 2025-ci il bu dirçəlişin adıdır-Konstitusiyamızın qüruru və birliyimizin coşqusu ilə!

Azərbaycan İlham Əliyevin rəhbərliyi ilə zəfər marşını oxuyur. Siyasi dialoqla toxunan suverenliyimiz, 2025-ci ildə yeni bir yüksəlişə hazırlaşır. Xankəndidən Xocalıya uzanan bu yol, təkcə torpağın deyil, ruhumuzun da azadlığıdır. Bu səfərlər, keçmişin izlərini silmədən, üzərinə gələcəyin planlarını çəkir. Suverenlik ili bizə bir dərs verir: birliyimizlə hər daşı yerindən oynada bilərik!



*Züriyyə Qarayeva*
*politoloq*

# Xocalıda, Xankəndidə birgə addımlayan siyasi partiyalar

## Siyasi dialoq mühiti yeni mərhələdə...

**Azərbaycanın siyasi palitrasında mühüm yeniliklərə yol açan, yeni siyasi konfiqurasiya çərçivəsində inkişaf edən dialoq mühiti, siyasi həmrəylik 2023-cü ilin sentyabrında antiterror tədbirləri nəticəsində azad edilmiş Xankəndi, Xocalı və Əsgəranda yenidən öz təzahürünü tapdı. Belə ki, martın 6-da ölkədə fəaliyyət göstərən siyasi partiya nümayəndələri, tanınmış politoloq və siyasi şərhçilər, habelə internet televiziya kanallarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlər növbəti birgə səfər çərçivəsində adıçəkilən bölgələrimizə səfər ediblər. Səfərin təşkilatçısı Azərbaycan Respublikası Prezidenti Administrasiyası olub.**

## Birgə səfərlər dialoqun inkişafına dəstək verir

Vurğulanmalıdır ki, yeni siyasi konfiqurasiyanın əsasında məhz siyasi dialoq mühitinin formalaşdırılması dayanır - Azərbaycanda siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində gücləndirmək və inkişaf etdirmək üçün bu amil vacib şərtdir. Prezident İlham Əliyev hər zaman bildirib ki, siyasi islahatlar partiyalararası geniş dialoq aparılmadan həyata keçirilə bilməz. Dialoq ənənəsi isə dövlətin əldə etdiyi uğurlara, qalibiyyətə və zəfərə hədəflənməlidir. 2020-ci ilin Vətən müharibəsi dövründə siyasi partiyaların milli maraqlarımız ətrafında birləşməsi də məhz bu uğurları yaradan şərtlər sırasında qeyd olunur. Azərbaycanın siyasi palitrasının vahid mövqedən çıxış etməsi dövlətin Qarabağ uğrunda apardığı haqq-ədalət mübarizəsini daha da gücləndirdi.

Bu gün həmin milli həmrəyliyin nəticələri ortadadır - suverenliyimizin bərpası hər bir siyasi partiya təmsilçisində, hər bir vətəndaşda xüsusi qürur hissi yaradır. 30 ilə yaxın işğal altında olan və xüsusi bir həssas anlam daşıyan Xocalı, Xankəndi kimi tarixi torpaqlarımızda birgə addımlamaq mühüm bir irəliləyişdir - bu, siyasi qüvvələrin yeni konsolidasiyasına, milli həmrəylik üçün dialoqun genişləndirilməsinə daha da yaxından kömək göstərir.




## Xocalı reallığı: hər bir azərbaycanlı qürur duyur...

Bu mənada növbəti, sayca 5-ci birgə səfər Xankəndi, Xocalı və Əsgərana edilib. 24 siyasi partiyanın nümayəndələri, tanınmış politoloq və siyasi şərhçilər, habelə internet televiziya kanallarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlər qədim yurd yerimizdə, erməni işğalının qurbanına çevrilmiş, soyqırımına, qətliama şahidlik etmiş torpaqlarımızda birlik, həmrəylik nümayiş etdiriblər. Təbii ki, səfərin bütün detalları olduqca əhəmiyyətlidir - amma qeyd edildiyi kimi, Qarabağ mübarizəsində, Qarabağın azadlığında, 30 illik müharibə tariximizdə olduqca həssas bir məqam olan Xocalı milli birliyimizin mövcud reallıqdakı əsl simvoluna çevrilir. Səfər iştirakçıları Xocalı şəhərində inşa edilən Xocalı Soyqırımı Memorialında aparılan işlərlə yaxından tanış olublar - bu, xüsusi bir hisdir. Həm kövrək, həm qürurverici anlar - həm də milli birliyin, birgəliyin nəticəsi kimi meydana çıxan qələbəmiz dövlətimizi tamam fərqli məqamlara ucaldıb. Bu gün hər bir azərbaycanlı qalib ölkənin vətəndaşı olaraq qürur duyur.

Səfər iştirakçıları Xankəndi şəhərində də olublar və 2023-cü il noyabrın 8-də Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradın keçirildiyi Zəfər meydanını ziyarət ediblər.

## İnam və etimad: milli maraqların işığında formalaşan birlik, birgəlik...

Bu kimi səfərlər, görüşlər, fikir mübadilələri, müzakirələr dövlətin inkişafı, siyasi mühitin təkmilləşməsi üçün ən gözəl vasitədir. Xankəndi şəhərində səfər iştirakçıları qarşısında çıxış edən zaman Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev bildirib ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbə bütün dünya azərbaycanlılarının qürur mənbəyidir. Administrasiya rəsmisi qeyd edib ki, Xankəndi şəhərində Zəfər meydanında ölkənin bütün əsas siyasi partiyalarının bir yerdə toplanması da Azərbaycanın siyasi tarixində əlamətdar hadisə kimi dəyərləndirilmədir. Ədalət Vəliyev çıxışında bildirib ki, müharibə dövründə olduğu kimi hər zaman vətənpərvər qüvvələri birləşdirən əsas amil milli maraqlar və dövlətçilik mövqeyidir.

Fərqli düşüncə, fərqli baxış və ya fərqli dəyərləndirmə normal bir haldır - amma mövzu dövlət, millət və ya milli maraqlar olan yerdə bütün güclər vahid ideoloji əsasda birləşməlidir. Ölkəmizdə də bu baş verdi - həm 2020-ci ildə, həm də 2023-cü ildə "Dəmir Yumruğa" inanan xalqımız, siyasi palitramız ümumi dövlət marağından çıxış etdi. Bütün dünya tərəfindən heyrətlə izlənən bu inam, etimad və həmrəylik yeni dövrün, yeni reallıqların əsasını qoydu. Bu gün Azərbaycan regionun simasına yeni ştrixlər əlavə edir - sülh uğrunda aparılan danışıqlar bölgəmizin strateji gələcəyini müəyyənləşdirir. Belə həssas bir məqamda isə daxili platformada yaşanan həmrəylik, birgəlik yalnız və yalnız uğur vəd edir. Azərbaycan bütün dünyaya tolerantlıq, multikulturalizmlə yanaşı həm də milli birlik, həmrəylik, birgəlik nümunəsi təqdim edir.

*Pərviz SADAYOĞLU*

## Milli Məclisin iclasında...

# Parlament Birinci vitse-prezident Mehriban Əliyevanı təbrik edib

## Ombudsmanın illik məruzəsi dinlənilib

**Martın 7-də Milli Məclisin növbəti iclası keçirilib. Spiker Sahibə Qafarova iclasın gündəliyinə 14 məsələnin daxil olduğunu bildirib.**

### İl ərzində ombudsmana 29 min 371 müraciət daxil olub

Əvvəlcə Azərbaycanın insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2024-cü ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsi dinlənilib. Məruzəni ombudsman Səbinə Əliyeva təqdim edib. O qeyd edib ki, ötən il ombudsmanın ünvanına 29 min 371 müraciət daxil olub: "Müraciətlərə baxılıb, araşdırmalar aparılıb, insanların üzləşdikləri problem və çətinliklərin həlli məqsədilə aidiyyəti dövlət qurumlarına müraciətlər edilib, pozulmuş hüquqların bərpası istiqamətində zəruri tədbirlər görülüb, həmçinin səlahiyyətli dövlət qurumlarına insan hüquqlarının səmərəli təmin edilməsinə və etibarlı müdafiəsinə yönəlmiş təklif və tövsiyələr təqdim olunub".

S.Əliyeva bildirib ki, illik məruzədə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülmüş işlərin təhlili əks etdirilməklə yanaşı, hüquq pozuntularının qarşısının alınması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsinin vacibliyi, dövlət qurumları ilə vətəndaş cəmiyyəti arasında səmərəli dialoqun və əməkdaşlığın dərinləşdirilməsi bir daha önə çəkilir: "Ümid edirəm ki, illik məruzə insan hüquqlarının daha effektiv müdafiəsinə, dövlət qurumları ilə ictimaiyyət arasında qarşılıqlı əməkdaşlıq və tərəfdaşlıq ruhunun gücləndirilməsinə təkan verməklə yanaşı, insan hüquq və azadlıqlarının təmin olunmasında sistemli və davamlı irəliləyişlərə, habelə hüquq mədəniyyətinin yüksəlməsinə öz töhfəsini verəcək".

### Müvəkkil qanunvericiliklə əlavə səlahiyyətlər istəyir

Qeyd edək ki, illik məruzədə müvəkkil qanunvericiliklə əlavə səlahiyyətlər istəyir. Belə ki, ombudsmanın qanunvericilik təşəbbüsü hüququnun təsbit olunması, onun insan hüquqlarına dair qanun layihələrinin parlamentdə müzakirəsində iştirak etməsi və rəy bildirməsi ilə bağlı qanunvericiliyə müvafiq dəyişikliyin edilməsi, ombudsmanın Azərbaycan Konstitusiyasının və qanunlarının şərh edilməsi ilə əlaqədar Konstitusiya Məhkəməsinə müraciət etmək hüququnun qanunvericiliklə təsbit olunması, ombudsmanın Məhkəmə-Hüquq Şurasının tərkibində təmsil olunması məsələsinə baxılması təklif olunur.




Məruzədə həmçinin vurğulanır ki, hakimlər həbs qətimkan tədbiri seçərkən qərarı əsaslandırmalıdır: "Hakimlər tərəfindən məhkəmələrdə həbs qətimkan tədbirinin seçilməsi haqqında təqdimata baxarkən digər qətimkan tədbirlərinin seçilməsinin mümkünlüyü yoxlanılmalıdır. Hakimlərə təqdimat təmin edildikdə isə həbslə əlaqədar olmayan qətimkan tədbirinin seçilməsinin qeyri-mümkün olmasının əsaslandırılması tövsiyə olunur. Məhkəmə-hüquq sistemində həyata keçirilən islahatlar cəza siyasətinin humanistləşdirilməsini və cinayətlərin dekriminallaşdırılmasını, qətimkan tədbirlərinin seçilməsi zamanı həbsin tətbiq edilməsi əsaslarına dair cinayət-prosessual qanunvericiliyin müddəalarına əməl olunmasını, alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsini nəzərdə tutur".

Bundan əlavə, insan hüquqları üzrə müvəkkil məruzədə "Biznes və insan hüquqları üzrə Dövlət Proqramı"nın hazırlanması və qəbul edilməsini təklif edib. Sənəddə vurğulanıb ki, yeni dövlət proqramı BMT-nin "Biznes və insan hüquqları üzrə rəhbər prinsipləri"ni və "Biznes və insan hüquqları üzrə Milli Fəaliyyət proqramlarına dair Təlimatı"nı, eləcə də bu sahədə xarici ölkələrin müsbət təcrübəsini nəzərə alaraq, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarına hörmət və riayət edilməsini, hüquq-müdafiə vasitələrinin daha əlçatan olmasını təmin etmək, korporativ sosial məsuliyyətin təbliği və tətbiqi ilə sahibkarların ölkənin sosial-iqtisadi həyatında daha fəal iştirakına şərait yaratmaq, bu sahədə aidiyyəti qurumların fəaliyyətinin əlaqələndirilməsinə nail olmaq məqsədi daşımalıdır.

Müzakirələr zamanı çıxış edən millət vəkilləri məruzə ilə bağlı fikir və təkliflərini səsləndiriblər. Müzakirələrdən sonra ombudsmanın illik məruzəsi nəzərə alınıb.

Sonra "İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının Nizamnaməsi"nə qoşulmaq haqqında" qanun layihəsi müzakirəyə çıxarılaraq qəbul olunub. Bu sənədlə Azərbaycan 2012-ci il noyabrın 22-də İslamabad şəhərində imzalanmış "İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının Nizamnaməsi"nə qoşulub.

### "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanuna dəyişiklik edilib

Daha sonra iclasda "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanuna dəyişiklik edilməsi barədə qanun layihəsi üçüncü oxunuşda müzakirəyə çıxarılıb. Qanun layihəsinə əsasən, sənədə "Orqanların (qurumların) fəaliyyətində korrupsiya risklərinin idarə edilməsi" adlı 8-1-ci maddə əlavə edilir. Layihəyə görə, qurumun rəhbəri korrupsiya risklərinin idarə edilməsi məqsədilə səlahiyyətli struktur bölmə (şəxs) müəyyən edir. Korrupsiya risklərinin idarə edilməsi prosesinə xüsusi bilik tələb edən sahələr üzrə mütəxəssislər cəlb edilə bilər. Qurumda hər il yanvarın 15-dən aprelin 15-dək əvvəlki ili əhatə edən korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qiymətləndirilməsi aparılır. Korrupsiya ilə əlaqədar hüquqpozmalar haqqında daxil olan müraciətlərin ümumiləşdirilməsinin nəticələrinə əsasən fəaliyyətindən daha çox şikayətlərin daxil olduğu struktur bölmədə və ya tabeliyində olan qurumda orqanın rəhbərinin qərarına əsasən digər müddətlərdə də risklərin müəyyən edilməsi, təhlili və qiymətləndirilməsi keçirilə bilər.

Sənədə əsasən, korrupsiya riskləri, həmin risklərə uyğun olaraq müəyyən edilən hədəflər, eləcə də risklərin qiymətləndirilməsinin nəticələri və bununla əlaqədar cari il üçün müəyyən edilən tədbirlər, həmçinin əvvəlki il üzrə müəyyən edilmiş tədbirlərə dair görülmüş işlər barədə məlumatlar hər il iyunun 1-dək müvafiq komissiyaya təqdim edilməlidir. Korrupsiya riskləri, həmin risklərə uyğun olaraq müəyyən edilən hədəflər, eləcə də risklərin qiymətləndirilməsinin nəticələri və görülmüş işlər barədə məlumatlar dövri olaraq ictimaiyyətə açıqlanır. Komissiya bu Qanunun 8-1.4-cü maddəsinə uyğun olaraq ona təqdim edilən məlumatların təhlili əsasında müvafiq orqana (quruma) korrupsiya risklərinin idarə edilməsinə dair tövsiyələr, həmçinin korrupsiyaya qarşı mübarizə haqqında qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər verə bilər.

Müzakirələrdən sonra layihə qəbul edilib.

### Milli Məclis Birinci vitse-prezident Mehriban Əliyevanı 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib

Millət vəkilləri gündəlikdə olan digər qanun layihələrini də qəbul ediblər.

Spiker Sahibə Qafarova Milli Məclis adından Birinci vitse-prezident Mehriban Əliyevanı 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib. S.Qafarova, həmçinin parlamentin martın 14-də keçiriləcək iclasında Azərbaycan Hökumətinin 2024-cü ilin yekunlarına dair hesabatının dinləniləcəyini bildirib.

*Nardar BAYRAMLI*

# Birlik və bərabərliyin simvolu



Tarixin ən şanlı səhifələrini yazan Azərbaycan Respublikasında suverenlik və konstitusiya ili qeyd olunur. Addım-addım bizi zəfərə aparan yolu bəzəyən daşlar Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik və uzaqgörən diplomatiyası nəticəsində zərgər dəqiqliyi ilə bir-bir yerinə qoyulub. Xarici siyasətimizdəki böyük addımlar xalq-dövlət birliyinin və həmrəyliyimizin ən parlaq təzahürləridir. Təbii ki, bu təzahürlər ölkə daxilindəki siyasi mühitə də təsirsiz ola bilməzdi.

Artıq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə ölkədə fəaliyyət göstərən siyasi partiyalar arasında yeni münasibətlər sistemi formalaşdırılmışdır. Dialoq imkanlarının dəyərləndirilməsi, konstruktiv əməkdaşlığın təşviq edilməsi və milli maraqlar uğrunda birgə fəaliyyət bu sistemin əsas xarakterik xüsusiyyətləridir. Xüsusilə də, son beş ildə bu istiqamətdə çox mühüm addımlar atılıb. Belə ki, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşkilatçılığı ilə siyasi partiyalar üçün formalaşdırılan dialoq masası etibarlı tərəfdaşlığın yaradılmasına zəmin yaradan mühüm addımlardan biridir. Keçirilən görüşlər çərçivəsində siyasi platformada dinləmək və dinlənilmək mədəniyyətinin formalaşdırılması çox mühüm nailiyyətdir. Məhz belə sağlam münasibətlərin və konstruktiv əməkdaşlığın təzahürü olaraq siyasi partiyaların rəhbərlərinin mütəmadi olaraq işğaldan azad olunmuş ərazilərə səfərləri də təşkil olunur. İndiyə qədər sayca beş belə səfər təşkil olunub ki, bu səfərlər çərçivəsində Qarabağa böyük qayıdışla bağlı siyasi partiya rəhbərlərini maraqlandıran suallar cavablandırılır, eyni zamanda Qarabağın dirçəlişi ilə bağlı görülən işlərlə yerində tanış olmaq imkanı yaradılır. Mühüm əhəmiyyət kəsb edən belə səfərlərdən növbətisi 6 mart 2025-ci il tarixində baş tutub. Ölkədə fəaliyyət göstərən siyasi partiya rəhbərlərinin, tanınmış politoloqların və media nümayəndələrinin iştirakı ilə Əsgəran, Xocalı və Xankəndinə təşkil olunmuş bu səfər çərçivəsində Əsgəran qala kompleksini ziyarət etmək, Xocalı Soyqırım memorialında görülən işlərlə tanış olmaq imkanı yaradılıb. Həmçinin Xənkəndidə olan siyasilər Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Zəfər paradının keçirildiyi meydanda olublar. Zəfər meydanında Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev çıxış edərək ötən dövr ərzində Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə davamlı surətdə təşviq olunan həmrəylik mühitinin strateji əhəmiyyəti və mövcud istiqamətdə görülmüş işlər haqqında məlumat verdi. Administrasiya rəsmisi qeyd etdi ki, Xankəndi şəhərində Zəfər meydanında ölkənin bütün əsas siyasi partiyalarının bir yerdə toplanması da Azərbaycanın siyasi tarixində əlamətdar hadisə kimi dəyərləndirilməlidir.

İstisnasız olaraq qeyd edə bilərik ki, birlik və bərabərliyin simvolu olan bu səfərin önəmi kifayət qədər böyükdür. Cənab Prezidentin təşəbbüsü ilə əsası qoyulmuş yeni siyasi münasibətlər sisteminin dövlətçilik və milli maraqlarımızın müdafiəsi naminə fərqliliklərin ortaq hədəflərə çevrilməsini təşviq etdiyinin bariz nümunəsidir. İyirmi dörd siyasi partiyanın rəhbərlərinin Zəfər meydanında olmasının verdiyi mesajların əsas mahiyyəti də məhz ondan ibarət idi ki, belə konstruktiv əməkdaşlığın və dialoqun olduğu mühitdə dövlət maraqlarını hər zaman şəxsi ambisiyalardan üstün tutmağı bacaranlar olmalıdırlar. Bu da etibarlı tərəfdaşlığı şərtləndirən ən vacib şərtdir.

*Aytən Qurbanova*
*politoloq*

# Qüdrət Orucovun 100 illiyinə həsr olunmuş tədbir keçirilib








Azərbaycan Dövlət Pedaqoji Universitetinin akt zalında Zəngəzur mahalının Mığrı bölgəsinin tanınmış ziyalısı, xalq müəllimi, Mığrı rayonunun beynəlmiləl Lehvaz kənd orta məktəbinin direktoru Qüdrət Xuduş oğlu Orucovun anadan olmasının 100 illiyinə həsr edilmiş tədbir keçirilib.

Tədbir “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Alqış Musayevin çıxışı ilə başlayıb.

Daha sonra universitetin rektoru Cəfər Cəfərov, kimya elmləri doktoru, professor İsmayıl Əliyev, YAP təftiş komissiyasının üzvü Musa Musayev, fəlsəfə elmlər doktoru Qoşqar Əliyev, “Vətəndaşların Sosial Rifahı Naminə”İB sədri İradə Rzazadə, C. Cabbarlı adına İrəvan Dövlət Teatrının direktoru İftixar Piriyev, Azərbaycan Milli Konservatoriyasının müəllimi Məhərrəm Dövlətov, Azərbaycan şəhər Bələdiyyələr Milli Assosiasiyasının və Nərimanov Bələdiyyəsinin sədri Təmraz Tağıyev və digərləri çıxış ediblər.

Bundan əlavə siyasi və dövlət xadimləri, ədəbiyyat və incəsənət xadimləri, ailə üzvləri, yaxınları, Mığrı elinin ziyalıları, alimləri və müəllimləri çıxış edərək Qüdrət Orucov haqqında xatirələrini bölüşüblər.

Bir çox ziyalılar Qüdrət Orucov haqqında müsbət fikirlərini söyləyiblər. ATU-nun dosenti Elza Orucova “O, elə bir isim ki..” və “O sadəcə mənim anam” adlı esselər səsləndirib. Aktyor Tural Əhmədin çıxışları ilə davam edən tədbirdə “Müxənnət” filmi qısa versiyada ekranlaşdırılıb.

BMT-nin Qida və Kənd Təsərüfatı təşkilatı üzrə Naxçıvan MR-nın nümayəndəsi, Qüdrət Orucovun nəvəsi Gülsəl Səfərova babası haqqında fikirlərini bölüşüb.

Tədbir çıxışlarla davam edib.

*Havar Şəfiyeva*

# Təxribatların izi ilə...

## Ermənistan hakimiyyəti manipulyasiyadan əl çəkməsə...

**Son günlər Ermənistanda müşahidə olunan proseslər birmənalı qarşılana bilməz. Ölkədə siyasi qüvvələr arasında konsolidasiya tam şəkildə itib. Hətta müəyyən mənada revanşist müxalifətin yenidən dirçəlməsi prosesi də gözə çarpmaqdadır. Bunun fonunda isə Paşinyan hakimiyyəti hələ də qlobal oyunlarda, dalanlarda “baş girləmək”lə məşğuldur. Hətta Ermənistanın siyasi ekspertləri, deputatları da etiraf edirlər ki, ölkə düşdüyü bu ağır durumdan bir yolla - yalnız sülhə imza atmaqla canını qurtara bilər. Bunun üçün isə siyasi iradə gərəkir.**

### Sülhlə bağlı müzakirələr açılan kimi...

Təsadüfi deyil ki, son bir neçə gündə Ermənistanın siyasi hakimiyyəti tərəfindən yenidən sülh mesajları səslənməyə başlayıb. Paşinyanın “Armenpressə” yazdığı məqaləsində sülhə toxunması, xarici işlər naziri Mirzoyanın parlamentdəki çıxışında ölkəsinin sülhdə maraqlı olmasını ifadə etməsi bunu təsdiqləyir. Təbii ki, sülh üçün ortadakı şərtlər yerinə yetirilməlidir. Bəzi məqamlarda, siyasi hakimiyyət nümayəndələrinin sülh ilə manipulyasiyasının şahidi oluruq. Sülhdən danışa - danışa silahlanmaya davam etməklə, Aİ-nin monitorinq adı altında bölgəyə kəşfiyyatçı qrupunu yerləşdirməklə Ermənistan hökuməti vaxtı uzatmaq, nələrəsə ümid etmək istəyə bilər. Amma hazırkı siyasi reallıqlar onu göstərir ki, sülh Ermənistanın mövcud hakimiyyəti üçün də çıxış yoludur.

Bunun səbəbinə gəldikdə, qeyd edilməlidir ki, sənədin imzalanması Ermənistanın iqtisadi inkişafı ilə yanaşı, həm də daxili sabitliyinə yol aça bilər. O baxımdan ki, sülh müqaviləsinin imzalanması həm mərkəzi hakimiyyətin xalq arasındakı nüfuzunu artıracaq, həm də Ermənistanı siyasi alət olmaqdan xilas edəcək. Fərqli güclərin maşasına çevrilən Ermənistan Azərbaycanın şərtlərini qəbul etməklə özünün tam şəkildə (hazırda formal olan) müstəqilliyini də əldə edə biləcək.

Beləliklə, sülhün yaratdığı üstünlüklər sırasında Ermənistanın siyasi vəziyyətinin stabilləşməsi də qeyd edilməlidir. Bu isə təbii ki, həm fərqli xarici qüvvələrə xidmət edən siyasi partiyaların, həm də revanşizm xəstəliyini yayan erməni kilsəsinin işinə yaramır. Adıçəkilən qüvvələr iki ölkə arasında hazırlanan sülh sənədinin son mərhələdə olmasını görür və anlayır ki, sənəd imzalanacağı təqdirdə onların qeyri-konstruktiv fəaliyyəti də tam şəkildə sönməyə məhkum olacaq.

### Ard-arda təxribatlar...

Beləliklə, sülhün yaradacağı üstünlüklər ortadadır - buna maneə olmaq istəyən və ya bu məsələ ilə bağlı manipulyasiya edənlər İrəvana pislik edirlər. Paralel olaraq isə sülh prosesinə fərqli kontekstdə - silahlı təxribata əl ataraq, şərti sərhəd zonalarında yanğınlar törədərək maneə olmağa çalışırlar. Məsələn, bir neçə gün öncə Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad qəsəbəsində Ermənistan Respublikası ilə şərti sərhəddə açıq ərazidə Ermənistan tərəfindən yanğın törədilib. Bununla bağlı FHN-nin qaynar xəttinə məlumat daxil olub. Məlumatla əlaqədar dərhal əraziyə Sədərək Rayon Yanğından Mühafizə Hissəsinin qüvvələri cəlb olunub. Əməliyyat şəraitinə uyğun olaraq yanğınsöndürənlər tərəfindən həyata keçirilmiş operativ tədbirlər sayəsində yanğın daha geniş sahəyə yayılmasına imkan verilmədən qısa müddətdə söndürülüb. Yanğın nəticəsində təxminən 7 hektar sahədə quru ot və qamışlıq ərazi yanıb. Ətraf ərazilər yanğından mühafizə olunub.



Martın 4-ü saat 22:05 radələrində isə Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Xanazax yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun mövqelərini atıcı silahlardan atəşə tutub.

Bəli, Ermənistan tərəfinin yaxın zamanda sülh imzalanması perspektivi ilə bağlı mövqe sərgiləməsi, ardından isə bu kimi təxribatlara əl atması qəribə bir mənzərə formalaşdırır - ya son dövrlərdə baş verən siyasi proseslərdən düzgün nəticələr çıxarılmayıb, ya da, sülhə mane olmaq istəyən kilsə nəzarətindəki ordu birliyi və ya Qərb yenidən “fəaliyyətə keçib”...

### Aİ missiyasının gözü önündə...

Qeyd edək ki, hadisənin başvermə yeri Aİ müşahidə missiyasının, dolayısı ilə Fransanın kəşfiyyat qrupunun “durbinçi zonasıdır”. Missiyanın fəaliyyəti ilə bağlı açıq narazılıq fonunda Aİ bu ilin fevralında missiyanın xidməti vəzifə dövrünü iki illik də artırdı. Bu isə birmənalı şəkildə sülhə mane olmaq üçün atılan addım idi. Çünki Aİ missiyası hazırda bölgədə sülh prosesinə hər hansı bir töhfə vermir. Tam əksinə, arabir şərti sərhəd zonasına gəlib binoklla Azərbaycan ərazilərinə boylanması mənfi assosasiya yaradır. Azərbaycanın sülh sənədində israr etdiyi məsələlərdən biri məhz kənar güclərin sərhəd zonasında olmamasıdır. Burada da hazırkı məqamda Aİ missiyasının fəaliyyəti göz önündə canlanır. Başqa sözlə, Azərbaycan indiki məqamda sülh üçün Aİ missiyasının bölgədən çıxarılmasını tələb edir. İnandırıcı versiyadır ki, Aİ Ermənistanın sülhə doğru yönəldiyini anlayaraq ordu daxilində bu və ya başqa üsullarla ələ aldığı şəxslərdən istifadə edir. Prosesdə maraqlı olan digər daxili-siyasi güclərin də buna dəstək olması mümkündür - Aİ isə bölgədə yaranacaq yeni iqtisadi-siyasi mənzərəyə xələl gətirmək, bu prosesə müdaxilə imkanları yaratmaq istəyir, gücsüz və iradəsiz Ermənistanın özünün orbitindən çıxmasını istəmir...

*S.İSMAYILZADƏ*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

# Rəqəmsal transformasiya...

## Əmək məhsuldarlığı 30 faizədək artacaq!

Bu günlərdə Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) 2024-cü ilin yekunlarına həsr olunmuş mətbuat konfransı baş tutub. Təbdirdə iştirak edən mərkəzin icraçı direktoru Fariz Cəfərov bildirib ki, Azərbaycanda süni intellektin tətbiq edildiyi sahələrin genişlənməsi gözlənilir.

F.Cəfərov süni intellektin dinamik inkişaf etdiyini vurğulayıb: “Artıq ölkədə bir sıra sektorlar süni intellekti tətbiq edir. Dünyada bu texnologiya səhiyyə sahəsində də geniş istifadə olunur. Məsələn, süni intellekt proqramları rentgen analizlərinin nəticələrini oxuya bilir”. O, əlavə edib ki, süni intellekt sürətlə inkişaf edən bir sahədir: “Texnologiyanın inkişafı iş yerlərinin azalmasına deyil, əksinə, artmasına səbəb olur. Süni intellektin arxasında böyük məlumat bazası dayanır və bu bazalar böyüdükcə həmin sahədə yeni ixtisaslar yaranır”.

**Ölkəmizdə “Apple” səlahiyyətli təlim mərkəzi yaradılacaq**

F.Cəfərov qeyd edib ki, ötən il 4SİM “Apple” şirkəti ilə birgə “Apple” səlahiyyətli təlim mərkəzinin yaradılması, coğrafi informasiya sistemləri sahəsində dünyanın aparıcı şirkəti olan “Esri” ilə “Tələbələr üçün ArcGİS” layihəsi, blokçeyn, veb3, kriptoqrafika və kriptovalyuta sahəsində ixtisaslaşmış “Binance” şirkəti ilə “Binance Academy” ilə bağlı əməkdaşlığa start verib. Onun sözlərinə görə, bu proqramlar çərçivəsində müxtəlif təlim sessiyaları keçirilir ki, məqsəd ixtisaslaşmış yerli mütəxəssislərin və təlimçilərin hazırlanmasına töhfə verməkdir.

F.Cəfərov bildirib ki, bu il davam etdiriləcək “4Sİ Akademiyası” Milli Proqramı daha çox vətəndaşı və platformada təqdim olunan 8000-dən çox kursu əhatə edəcək: “Hər bir istifadəçi 6 həftə ərzində bu kurslardan yararlana biləcək. Milli Proqram üçün qeydiyyat növbəti həftədən start götürəcək. İştirakçılar üçün yaş və digər məhdudiyyətlər yoxdur”.

**Startaplarımızın Çində investisiya cəlb etmək şansı**

İcraçı direktorun sözlərinə görə, ötən il 10-a yaxın Azərbaycan startapı 4SİM-in dəstəyi ilə Çinin Tyanşin şəhərində təqdim olunub. O, qeyd edib ki, Azərbaycan startapları Çində “unicorn” şirkətlərdə təcrübə keçib və investisiya cəlb etmək şansı əldə edib: “Ümumilikdə, 4SİM Dünya İqtisadi Forumu çərçivəsində 8 mərkəz ilə əməkdaşlıq edib, 14 tədbir və 18 layihə həyata keçirilib”.

4SIM kimi qurumun MDB məkanında ilk Azərbaycanda mövcud olduğunu deyən qurum rəhbəri ötən il ərzində 30-dan çox ölkə ilə əməkdaşlıq əlaqələrinin qurulduğunu əlavə edib: “Rəqəmsal iqtisadiyyatın inkişafına dəstək vermək və ölkəmizin Dördüncü Sənaye İnqilabı texnologiyalarının faydalarından bəhrələnməsini və bu sahədə qabaqcıl dövlətlər sırasında qərarlaşmasını təmin etmək əsas hədəfimizdir”.

**Sənaye sahəsində 4.0 Mərkəzi yaradılacaq**

F.Cəfərov qeyd edib ki, Azərbaycanda bu il sənaye sahəsində 4.0 Mərkəzi yaradılacaq. Onun sözlərinə görə, yeni mərkəz həm özəl, həm də dövlət sektorunun nümayəndələrinə müxtəlif layihələrlə tanış olmaq imkanı yaradacaq: “Burada texnologiya şirkətləri öz məhsullarını təqdim edəcək, eyni zamanda bir çox startaplar cəlb olunacaq”.

F.Cəfərov əlavə edib ki, mərkəzdə 5 mindən çox şəxs rəqəmsal təhsil alacaq.

**Rəqəmsal transformasiya əmək məhsuldarlığını artıracaq**

İcraçı direktorun sözlərinə görə, Azərbaycanda 650-dən çox şirkət Sənaye 4.0 proqramından keçəcək. O, qeyd edib ki, bu təşəbbüs çərçivəsində şirkətlər üçün rəqəmsal transformasiya yol xəritəsi hazırlanacaq: “Beləliklə, 650 şirkət rəqəmsal transformasiya, yəni Sənaye 4.0 prosesindən keçəcək”.

F.Cəfərov vurğulayıb ki, Sənaye 4.0 platformasının təşkilatlara müsbət təsiri olacaq: “Bu yanaşma anbar xərclərini 20-40 faiz azaldacaq, əmək məhsuldarlığını isə 15-30 faiz artıracaq”. O, qeyd edib ki, hazırda sənaye prosesindən keçən şirkətlərin toplanacağı reyestr yaradılır. F.Cəfərov həmçinin xatırladıb ki, Azərbaycan Prezidentinin 6 yanvar 2021-ci il tarixli fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində “Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi” publik hüquqi şəxsi yaradılıb. Mərkəzin məqsədi qlobal iqtisadiyyatda baş verən dəyişikliklər fonunda Azərbaycanın mövqeyini gücləndirmək və ölkəni bu sahədə aparıcı dövlətlər sırasına çıxarmaqdır: “4SİM, həmçinin Dördüncü Sənaye İnqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığı əlaqələndirir, rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların və layihələrin təhlilini və koordinasiyasını həyata keçirir”.



Qeyd edək ki, ötən il mərkəz 30-dan çox beynəlxalq tərəfdaş və 100-dən çox yerli təşkilatla əməkdaşlığa başlayıb.

*Sahib*

# Brüsseldə yarımçıq razılıq

## Aİ Ukrayna ilə bağlı yekdil qərara gələ bilmir

### Müdafiə qabiliyyəti gücləndirilir - Aİ ABŞ ilə "üzülüşür"...

Formalaşan yeni qlobal nizamda yer tutmaq üçün fərqli yollara əl atan Avropa İttifaqı yenidən "başladığı yerə" qayıtmağa qərar verir. Belə ki, ABŞ ilə Rusiyanın Ukrayna kartı üzərindən yaxınlaşmasının fonunda Brüssel də varlığını hiss etdirməyə çalışır. Bunun üçün isə Aİ "rəqiblər"in ortaq nöqtəsini özünə cəlb etmək niyyətinə düşüb. Başqa sözlə, Ukrayna danışıqlarında masada yer almaq üçün Brüssel Kiyev üzərindən təzyiq vasitələrini işə salır. Heç bir işə yaramayan Paris toplantısı, qərarsızlıqla müşayiət edilən London yığıncağının ardından Aİ bu dəfə Brüsseldə "görüş" təyin etdi. Cümə axşamı "Avropanın paytaxtı"nda keçirilən Aİ liderlərinin sammitinin nəticələri isə heç də birmənalı qarşılanmır.

Saatlarla davam edən müzakirələrdən sonra dövlət və hökumət başçılarının əsas razılığa gəldikləri ortaq nöqtə Avropa Komissiyasının sədri Ursula fon der Leyen tərəfindən bu həftə təklif edilən Avropanın müdafiə qabiliyyətinin gücləndirilməsinə dair iddialı plan oldu. Bu planın bəzi təfərrüatları hər kəsin xoşuna gəlməsə belə, Aİ məsələ üzərində işləməyi istisna etmir. Prezident Zelenski Brüsseldə isti qarşılansa da, Ukraynaya hərbi yardımın davam etdirilməsində vahid mövqe əldə edilmədi. Macarıstanın Baş naziri Viktor Orban Kiyevə hərbi yardım göndərilməsinin əleyhinə çıxdı.

### Fon der Leyenin 800 milyardlıq planı...

Qeyd edək ki, görüşün heç də "işgüzar müstəvidə" keçəcəyi əvvəlcədən də gözlənilmirdi. Sammitin "fövqəladə" olacağı bütün mesajlardan aydın olurdu. Fon der Leyenin "Avropa heç birimizin həyatımızda görmədiyi miqyasda açıq təhlükə ilə üz-üzədir" fikri də bunu təsdiqləyirdi. AK rəhbəri bununla həm də Ukraynaya yardım məsələsində vahid mövqe əldə edəcəyinə inam ifadə edirdi.



Toplantıdan bir gün əvvəl xalqına müraciət edən Emmanuel Makron isə toplantıya hazırlıq prosesinə "başçılıq" etdi - onun "Sülhə artıq zəmanət verilə bilməz..." və ya "Rusiya təhlükəsi Avropaya təsir edir" kimi tezislər irəli sürməsi Aİ-nin sülhdənyayınma ilə bağlı planlarının olmasından xəbər verir. Amma sammit iştirakçıları Makronun bir az da Fransanın nüvə çətirini bütün Avropanı əhatə edəcək şəkildə genişləndirmək ideyasına deyil (baxmayaraq ki, bu mövzunun pərdə arxasında müzakirə edilməsi istisna olunmur), fon der Leyenin təqdim etdiyi "Avropanı yenidən silahlandıraq" planı ətrafında cəmləşməyə qərar verdi. Ümumi dəyəri 800 milyard avro olan bu iddialı planın Ukrayna ilə bağlı məqamları da var. Belə ki, Kiyevə silah istehsalı üçün 150 milyard avro kreditin cəlb edilməsi və Aİ ölkələrinin özlərinin hərbi potensialının gücləndirilməsi məsələsi planın ana xəttini təşkil etdi. Amma maliyyə qaydalarının əsaslı şəkildə liberallaşdırılması məsələsi də var ki, üzv ölkələr Aİ büdcə intizamını pozmadan əlavə müdafiə xərclərini ödəməlidirlər. Burada isə mühüm problemlər ortaya çıxır...

Bundan başqa, sammitdə vaxtilə ABŞ tərəfindən Ukraynaya verilən, indi isə prezident Trampın göstərişi ilə dondurulan hərbi və kəşfiyyat dəstəyinin analoji Avropa dəstəyi ilə əvəz edilməsi məsələsi də müzakirə predmeti olub. burada da fikirlər haçalanıb -

### Narazılıqlar var...

Məsələn, ağır iqtisadi vəziyyətdə olan bəzi Aİ ölkələri daha çox xərcləmək üçün qanuni imkana malik olmaqdan məmnun qalıblar. Amma Aİnin müdafiə naminə, xüsusilə geridə qalmış regionların inkişaf edilməsi proqramı üçün pula qənaət etməyi planlaşdırması narazılıq doğurdu. Avstriya, İsveç, Hollandiya və daha az dərəcədə Danimarka Aİ-nin xərcləmə qaydalarını liberallaşdırmaq istəmir. Paralel olaraq bir qism isə müdafiə sahəsində səlahiyyətlərin əksəriyyətinin Brüsselə verilməsindən narahatdır. Bunu açıq şəkildə ifadə edən ilk şəxs isə Macarıstanın Baş naziri Viktor Orban oldu. Baş nazir Avropa ölkələrinin müdafiə qabiliyyətinin gücləndirilməsi ilə bağlı ideyanı dəstəklədiklərini bildirib, amma bu səylər Brüssel bürokratlarına deyil, üzv dövlətlərin səlahiyyətinə verilməlidir.

Bir neçə saatlıq müzakirələrdən sonra Aİ liderləri Avropa Komissiyasının təklif etdiyi Avropanın müdafiə qabiliyyətinin artırılması planı ilə bağlı razılıq əldə edə biliblər. Yekun bəyanatda blok "borc davamlılığını təmin etməklə yanaşı, bütün üzv dövlətlərdə əhəmiyyətli milli müdafiə xərclərini asanlaşdırmaq üçün" yeni vəsait ayırmağa qərar verib.

### Fitsonun tələbi ilə...

Macarıstanın Baş naziri Viktor Orban Aİ liderlərinin Ukrayna ilə bağlı yekun bəyanatını imzalamayacağını bildirib. Macarıstanın baş naziri ilə yanaşı, onun slovakiyalı həmkarı Robert Fitso da sammitdə Kiyevin bu il dayandırdığı Rusiya qazının Ukrayna ərazisindən tranzitinin bərpa edilməsinin vacibliyini qeyd edib. Avropa liderləri isə bu iddianın qarşısında "təslim olublar": birgə bəyanatla bağlı razılaşmanın müqabilində, Fitsonun təkidi ilə, Ukraynanın Rusiya qazının nəqlini bərpa etməsi ilə bağlı təlabi dəstəkləyən yekun sənədə əlavə edilib.

**P.İSMAYILOV**

# Atəşkəs və sülh...

## 3 gün sonra diqqət yenə Ər-Riyada yönələcək

Şərqi Avropada geosiyasi proseslərin tam fərqli formada cərəyan edəcəyi gözlənilir. Artıq Rusiya-Ukrayna müharibəsi başa çatmaq üzrədir. Müharibəni tez bir zamanda sona çatdırmağı qarşısına məqsəd qoyan Tramp Moskva və Kiyev ilə bu istiqamətdə təmasları daha da intensivləşdirib. Son bir neçə ayda aparılan telefon danışıqları və keçirilən görüşlər bunu deməyə əsas verir. Önümüzdəki aylarda Rusiya-Ukrayna münaqişəsində, o cümlədən ABŞ-Rusiya və ABŞ-Ukrayna münasibətlərində mühüm proseslərin baş verəcəyi ehtimal olunur.

### Ağ Ev məqsədinə nail oldu

Martın 11-də Ər-Riyadda ABŞ ilə Ukrayna rəsmiləri arasında görüşün keçirilməsi gözlənilir. Qərb KİV-inin məlumatına görə, ABŞ nümayində heyətinə Dövlət katibi Mark Rubio, ABŞ-ın Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Stiven Vitkoff, ABŞ-ın milli təhlükəsizlik üzrə müşaviri Mayk Vals, Ukrayna nümayəndə heyətinə isə Ukrayna Prezident Ofisi Aparatının rəhbəri Andrey Yermak rəhbərlik edəcək.

Prezident Zelenski öz sosial şəbəkə hesabında belə bir görüşün baş tutacağını təsdiqləyib. Dövlət başçısı qeyd edib ki, o martın 10-da Səudiyyə Ərəbistanına səfər edəcək, Krallığın vəliəhdi, Baş nazir Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudla görüşəcək. Zelenski Tramp administrasiyasının sülh quruculuğu istiqamətində səylərini yüksək qiymətləndirdiyini və Ukraynanın təhlükəsizliyinin təmin olunması istiqamətində Vaşinqtonla daha da fəal əməkdaşlıq edəcəyini də bəyan edib.

Ər-Riyad görüşünün mahiyyətinə gəlincə, Stiven Vitkoff jurnalistlərə açıqlamasında bildirib ki, bu görüşün gündəliyinə münaqişənin həlli üzrə razılaşmanın əsasları və 6 aylıq atəşkəs sazişi daxil olacaq. Vitkoff onu da diqqətə çatdırıb ki, ABŞ Ukraynaya silah və kəşfiyyat dəstəyini böyük ehtimalla bərpa edə bilər. "Əgər Ukrayna sülh danışıqlarına razılaşarsa, ABŞ təzyiq siyasətinin ikinci mərhələsi olan Rusiya hissəsinə başlayacaq," - deyə Vitkoff vurğulayıb.

ABŞ rəsmisinin sözlərinə görə, ABŞ ilk növbədə altı aylıq atəşkəsə nail olmaq və bundan sonra Rusiya-Ukrayna sülh prosesinə başlamaq niyyətindədir - o, Ağ Evin bu məsələdə israrlı olduğunu dilə gətirib.

Xatırladaq ki, fevralın 28-də Ağ Evdə Tramp ilə Zelenski arasında yaşanan son gərginlikdən sonra Vaşinqton Ukraynaya bütün hərbi və maliyyə dəstəyini dayandırıb. Hətta Ukraynaya kəşfiyyat məlumatlarının ötürülməsi də qadağan edilib. Londonda Aİ-nin və Avropa ölkələrinin rəhbərləri və dövlət başçıları Zelenskiyə Kiyevə sona qədər dəstək verəcəklərini desələr də, Brüsselin Ukraynaya 20 milyard avro məbləğində yeni hərbi yardım paketinin hazırlanması dayandırması vəziyyəti kökündən dəyişdirdi.

Bütün bunların fonunda Ukrayna rəhbərliyi bəyanat yayaraq, Ağ Evdə baş verənlərdən dərin təəssüf hissi keçirdiklərini və Tramp administrasiyasının sülh missiyasını dəstəkləməyə hazır olduqlarını bildiriblər.

### Atəşkəs elan olunacaq?

Məsələ ilə bağlı politoloq İlqar Vəlizadə "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, yaxın 1-2 ayda tərəflər arasında sülh sazişinin imzalanması ehtimal olunur: "Bu barədə müxtəlif fikirlər səslənidirilir. Amma yaz-yay aylarında və bəlkə də daha tez bir zamanda Rusiya ilə Ukrayna arasında atəşkəs sazişinin imzalanması mümkün görünür. Deyilənə görə, saziş altı aylıq müddəti əhatə edəcək. Bu müddətdə münaqişə tərəfləri arasında sülh müqaviləsi ilə bağlı danışıqlar aparılacaq. Hesab edirəm ki, belə bir saziş ABŞ-ın özünə lazımdır və Ukrayna da Vaşinqtonun şərtlərinə razı olacaq. Bundan başqa, Vaşinqtonun vasitəçiliyi ilə təşkil olunacaq sülh danışıqlarından əvvəl həm Rusiya, həm də Ukrayna öz nümayində heyətini müəyyən etməlidir".

"Çox güman ki, yaxın zamanda Vaşinqton ilə Kiyev arasında Ukraynadakı mineral ehtiyatların istismarı ilə bağlı iki saziş də imzalanacaq. Bunu ABŞ rəsmilərinin özləri təsdiqləyiblər. Böyük ehtimalla, Ər-Riyaddakı görüşdə hər iki sazişin müddəaları ətrafında da geniş müzakirə aparılacaq,"-deyə İ.Vəlizadə əlavə edib.



### Vaşinqton sanksiya məsələsinə qayıdacaq?

Politoloq belə bir halın baş verməyəcəyini bildirib. Onun sözlərinə görə, Moskva və Vaşinqton Ukraynada müharibənin tez bir zamanda sona çatmasında maraqlıdır: "Kreml ABŞ-ın təkliflərinə razı olub və Tramp administrasiyasının vasitəçiliyi ilə keçiriləcək atəşkəs və sülh danışıqlarında iştirak etməyə hazırdır. Belə bir durumda Vaşinqtonun Rusiyaya qarşı yenidən sanksiyalar tətbiq etməsi qeyri-mümkündür".

### Münaqişə dondurulacaq?

Bir çox ekspertlər altı ay müddətində Rusiya və Ukraynanın sülh müqaviləsi ilə bağlı ortaq razılaşmaya gəlməsini qeyri-mümkün hesab edirlər. Onların proqnozlarına görə, Ukraynadakı münaqişə iyirmi və ya otuz il ərzində dondurulmuş vəziyyətdə qalacaq. İ.Vəlizadə isə bildirib ki, bu halda nə zamansa münaqişə yenidən alovlana bilər: "Əgər hər iki tərəf atəşkəslə bağlı öhdəliklərini yerinə yetirməsə, hərbi qarşıdurmalar yenidən vüsət alacaq. Yox, əgər hər iki tərəf atəşkəsə əməl edərsə, hər hansı ciddi hərbi əməliyyat baş verməyəcək".

**Yunis ABDULLAYEV**

# Türkiyədə inflyasiya azalır

## Hökumət əlverişli qiymət mühitində uçot dərəcəsini endirməkdədir

**Türkiyə Mərkəzi Bankı yanında Pul Siyasəti Komitəsi martın 6-da keçirdiyi iclasda uçot dərəcəsini 2,5 bənd azaldaraq 45 faizdən 42,5 faizə endirib. Qərar ölkədəki faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəf diapozunu, həmçinin, daxili və xarici amillərinin əlverişli olması ssenarisi nəzərə alınmaqla verilib. Mərkəzi Bankın sədri Fatih Karahanın sözlərinə görə, 2025-ci il başlayandan uçot siyasəti ilə bağlı ümumilikdə 3 qərar verilib və bu qərarla birlikdə faiz stavkası ümumilikdə 7,5 bənd azaldılıb. Mövcud muhit inflyasiya ilə bağlı risklərin azalmağa doğru getdiyini şərtləndirdiyindən hökumətin növbəti iclasda yenidən uçot faizlərini endirəcəyi ehtimal olunur.**

**Qeyd edək ki, Türkiyə Mərkəzi Bankı 2020-ci ildən sonra uçot dərəcələrinin artırılması istiqamətində qərarlar qəbul etsə də, 2024-cü ildən başlayaraq faiz endiriminə gedən kurs yürütməkdədir. Nəticədə son bir ildə ölkə üzrə uçot dərəcəsi 60 faizlik nisbətdən 42,5 faizlik həddə qədər düşüb. Təkcə 2024-cü ilin dekabrında 50-nin üzərində olan uçot dərəcəsi siyasəti xeyli yumşaldılmaqla 10 faiz bəndə yaxın azalıb.**

### İnflyasiya 70 faizdən 40 faizə düşüb



Mövcud qərar onu göstərir ki, Türkiyə hökuməti sabit pul siyasəti yürüdülməsinə üstünlük verir və ölkədə inflyasiyaya nəzarət alətlərinə güvənməklə sərt pul siyasətindən liberal siyasətə keçidi ön plana çıxarıb. Son aylarda əsas mallar üzrə qiymət indekslərinin azalması, idxal inflyasiyası risklərinin xeyli neytrallaşması müşahidə edilir ki, bu da pul bazarında riskləri azaldır. Hazırda ölkədə inflyasiya faizi təxminən 40 faiz təşkil edir ki, bu da ötən ilki 70 faizlik qiymət indeksinə nisbətən 50 faiz azalma deməkdir. F. Karahanın sözlərinə görə, inflyasiya gözləntiləri ümidvericidir və ilin sonunda bu rəqəmin 24 faiz qədər düşəcəyi fərz edilir. Bu isə qarşıdakı aylarda istehlak bazarı və bank sektorundakı risk faktorlarını daha da zəiflədəcək. Nəticədə pul bazarında əlverişli çərçivə, o cümlədən kredit və depozit seqmentlərində sərfəli dəhlizin formalaşması türk lirəsinin də dəyərinin sabitləşməsinə, hətta real bahalaşmasına zəmin yaradır.

Hökumətin cari ilin ilk 2 aylıq makroiqtisadi təhlillərinə əsasən, ölkə iqtisadiyyatı getdikcə risklərə daha çox davamlılıq nümayiş etdirir ki, da da güclü istehsal və emal bazasının sütunlarına əsaslanır. Ölkədə milli ixrac və yığımların artması tədiyyə balansının cari vəziyyətini də yaxşılaşdırmaqdadır. Ötən 2 ayda qeydə alınan 4 faizə yaxın ÜDM-in artım templəri iqtisadiyyatın hərarətinin davamlılığını təmin etməklə, qiymətlər bazarında da sabitlik üçün nikbin ssenarilər vəd edir. Hökumət mövcud inkişaf çərçivəsinə əsaslanaraq əlverişli qiymət sabitliyi fonunda sistemli və iradəli islahatlar aparır.

### İqtisadiyyata kapital qoyuluşları artır

Türkiyənin xəzinədarlıq və maliyyə naziri Məhmət Şimşəkin sözlərinə görə, ölkə iqtisadiyyatında sabitləşmə bank və maliyyə institutlarının kapital qoyuluşlarının ötən il 10,8 faiz artmasına səbəb olub. Ötən il xarici ticarətdə ixracın böyüməsi hesabına tədiyyə balansında müsbət saldo yaranıb ki, bu da milli gəlirlərin böyüməsini təmin edir. Bu amil daxili rezervlərin sabitliyini də möhkımləndirir. Türkiyənin strateji valyuta ehtiyatları pul bazarındakı kəskin tələb və gərginliklər səbəbindən son 2 il ərzində azalmağa doğru gedirdisə, hazırda azalma dayanıb. Türkiyə Mərkəzi Bankının açıqlamasına görə, ölkənin valyuta ehtiyatları iki il əvvəldəki 90 milyard dollardan 95 milyard dollara çatıb. Ötən il Türkiyənin iqtisadiyyatının əksər sektorlarında da dayanıqlılıq güclənib, ölkənin turizm sektoru, yüngül və yeyinti sənayesi, kənd təsərrüfatı, texnologiaylar və avtomobil və hərbi sənayesi daha da böyüyərək inkişafın və maliyyə sabitliyinin təmin edilməsində mühüm rol oynayıb. Cari ildə turizm və sənaye sektorunda, eləcə də aqrar bölmələrdə proqnozlaşdırılan artım dinamikası əlavə dəyərin yaranmasına töhfə verməklə, qardaş ölkənin iqtisadiyyatının gücünü möhkəmləndirə bilər.

Beləliklə, Türkiyə hökumətinin yürütdüyü təmkinli pul siyasəti makroiqtisadi tarazlığın qorunmasına mühüm töhfələr verir. Bu ssenarinin ən mühüm istiqaməti isə inflyasiya risklərinin azalması fonunda uçot siyasətinin yumşaldılmasını təşviq edir.

***E.CƏFƏRLİ***

# Bir nəslin xəstəlik tarixçəsi

## Emil Zolyanın "Ruqon-Makkarlar" silsiləsindən son romanı "Doktor Paskal" haqqında

**əvvəli ötən saylarımızda**

Yaşı altmışa yaxınlaşan doktor Paskal yoxsul insanların dadına çatan, yeni müalicə üsulları, dərmanlar icad eləyən şəfqətli əyalət həkimidir. Onu tibbin həm nəzəri, həm də praktiki məsələləri maraqlandırır. İrsiyyət, genetika problemi bu məsələlərin başında gəlir. Öz nəslinin xəritəsini çəkib şəcərəsini tutmaqla, eyni kök üstə bitmiş ayrı-ayrı fərdlərin xarakterini, xüsusiyyətlərini, xəstəliklərini öyrənməklə o, bir din kimi tapındığı elmi həqiqətinə - irsiyyət nəzəriyyəsinə praktiki zəmin yaratmağa çalışır. Nəsil ağacını mükəmməl tərtib eləmək, hər bir fərdi xüsusiyyətin hansı genlərin kombinasiyasından, sintezindən əmələ gəldiyini müəyyənləşdirmək iyirmi ildən bəri onun həyatının başlıca amalına çevrilib. Bir sözlə, yekun romanın baş qəhrəmanı bir özgəsi yox, Emil Zolya özüdür - doktor Paskal iyirmi cildlik epopeyasında azman bir nəsil ağacı əkməklə təbiətin mübhəm sirrinin ovuna çıxmış müəllifin alter-eqosudur.

Paskal özü nəslin Ruqon qoluna mənsubdur, Dida nənə dedikləri Adelaida Fukun nəvəsi, Pyer Ruqonun oğlu, Ejen Ruqonun qardaşıdır. Gəncliyində atişləməz yollardan keçmiş səksən yaşlı anası Felisite oğlunun müəmmalı məşğuliyyətindən çox narahatdır, Paskalın kilid altında qorunan qovluqlarının ailə sirləriylə dolu olduğunu bildiyindən bir gün o sirlərin azadlığa çıxıb nəsli bütün aləmdə bədnam eləyəcəyindən, görünür, həm də öz əməllərinin gün işığına çıxacağından bərk qorxur. Təmkinli, mehriban doktor Paskalın həm də bu səbəbdən anasıyla arası yoxdur. O öz nəslinin keçmişini cəmi bəşərin tarixi kimi öyrənir, eynən Emil Zolya da böyük roman silsiləsində Adelaida nənədən başlanan Ruqon-Makkar ailəsinin tarixini homo-sapiensin genealogiyası kimi araşdırır. Bu gün genetika elmi də sübuta yetirir ki, təqribən yüz min il qabaq Afrikadakı dərələrin birində bütün bəşəriyyətin ocaq çatıb balalarını, nəvələrini başına yığan bir ümumi nənəsi olub - onu alimlər dindən gəlmə elmi təbirlə mitoxondrial Həvva adlandırırlar.

***

Doktor Paskalın nəsil-kök axtarışına çıxması, əslində, özünü, öz mənbəyini axtarmaqdır - özünə gələn yollara-cığırlara bələdləşmək, canına ötürülmüş genləri saf-çürük eləmək, sevincinin-kədərinin, ilhamının-istedadının, azar-bezarının qaynağına yetişmək, bir sözlə, təbiətin sirrinə əl aparmaqdır. Ondan təqribən otuz il sonra Tomas Mannın Buddenbrok ailəsinin axırıncı başıpapaqlısı da öz nəslinin şəcərə kitabında beləcə eşələnəcək. Doktor Paskalın ölümündən az qala yüz il keçəndən sonra Markesin Buendia nəslinin sonuncu nümayəndəsi də sələfi kimi ailəsinin şifrələnmiş taleyinin kodlarını çözməyə çalışacaq. Zaman ötdükcə bunlar hamısı baş verəcək, çünki əlahəzrət Təsadüfün əlindən bu həyata vəsiqə alan insan dünyada öz yerini, koordinatını, keçmiş-keçənini, gələcəyini, kökünü-budağını bəlləmək istəyir, özünə istinad nöqtəsi axtarır.

Bu axtarış Paskalı insanlardan aralı salıb, həkim öhdəliklərini yerinə yetirmək üçün şəhərə çıxdıqlarını saymasaq, bütün gün kabinetində Faust kimi elmin gücüylə varlığın qapısına düşən açar hazırlamaq üçün baş sındırır. Onun bir niyyəti də bütün xəstəlikləri sağaldan universal dərman icad eləməkdir. Həqiqət sorağına çıxmaqdan ötrü doktorun evində hər cür şərait var. Paskal bu yaşınacan evlənməyib, arvad-uşaq qayğısı çəkmir. Ona sevgiylə, pərəstişlə, vicdanla xidmət göstərən qulluqçusu Martina, bir də qardaşı qızı, yetirməsi Klotilda ilə bir dam altında yaşayır. Martina doktorla təxminən yaşıddır, işbaz Aristid Sakkarın qızı Klotildanın isə iyirmi beş yaşı var. Atası təzə arvad alandan sonra qızını başından eləyib subay qardaşının yanına göndərib, qız əmisinin evində, doktorla Martinanın gözünün qabağında böyüyüb.

Klotildanın başqa şəhərdə yaşayan otuz iki yaşlı varlı-hallı qardaşı Maksim bir müddət əvvəl iflic keçirib. Ruqon iştahasıyla silahlanmış atası indi də onun vərəsəlik payına göz dikib, gözləyir ki, oğlu öləndə onun sərvətini ələ keçirsin, hətta onun ölümünü tezləşdirməyə çalışır. On yeddi yaşı olanda Maksimin nikahdankənar bir oğlu doğulub, artıq uşaq on beş yaşına girib, fəqət Maksim oğlunun anasına nikah qıymayıb, bədbəxt qadını evinə, sərvətinə yaxın buraxmayıb. Zavallı Şarlın həm əqli, həm də fiziki çatışmazlığı var, nəvə-nəticələri iyirmi ildən bəri dəlixanada yatan Dida nənəyə baş çəkəndə Maksim övladının ulu nənəsinə necə bənzədiyinə heyrət eləyir. Elə buradaca deyim ki, əsər boyu Şarl da, Maksim də ölür, onun sərvəti arzulandığı kimi bacısına yox, atasına qalır.

Bir sözlə, tək Makkarların yox, Ruqonların da arasında salamat adam tapmaq çətindir. Onların həyatsevərliyi, yaşamaq ehtirası bəzən xeyirxah işlərə rəvac versə də, çox vaxt şərə çevrilir, aqressiya törədir. Ruqonların duru həyat enerjisiylə Makkarların bulanıq ölüm enerjisi bir mənbədən yola çıxıb axa-axa şaxələnir, sonda yenə bir mənsəbdə, bir dəhnədə qovuşur - həyatla ölüm, Erosla Tanatos əkiz qardaşdır.

***

Maksimlə oğlunun vətənə gəlişi münasibətilə qohumlar yaşlı doğmalarına baş çəkirlər. Əzrayılın unutduğu yüz dörd yaşlı Adelaida Fuk onlara laqeyd, biganə nəzərlərlə baxır, qarının nəsil, doğmalıq instinkti çoxdan sıradan çıxıb. Onu görəndə doktorun beynindən bütöv bir yüzilliyin mənzərəsi keçir: Adelaida, Makkar, Felisite, Paskal, Klotilda, Maksim, Şarl...

Makkar əmi də artıq səksəni adlayıb. Qoca əyyaş, köhnə quldur sinninin bu çağında da səksən dərəcəlik konyak içməyindən qalmır. Əcəli də elə içkidən gəlir, sərxoş halda kresloda oturuqlu yuxulayanda qəlyanının qoru şalvarına düşüb onu korun-korun yandırır, Makkar əmi yanıb-yanıb bir ovuc külə çevrilir. Hadisə əsnasında evinə gələn Felisite sərxoş qohumunun yenicə od tutub alışmağa başladığı məqamda məsələdən duyuq düşsə də, köhnə quldurdan zəhləsi getdiyinə görə faciənin qarşısını almaqdan ötrü onu bir-iki ağız səsləməkdən başqa heç bir tədbir görmür. Beləcə, qoca Makkar içki hopmuş, içindən qızmış canının odunda bişib heçə-puça çıxır, onu dəfn eləməyə belə heç nə tapılmır...

Damarında baş qaldıran ehtirasları boğa-boğa asketik həyat tərzi keçirməyə alışmış doktor Paskal ömrün qürubuna doğru Klotildanın təzə-tər gözəlliyinin təsiriylə yaşamaq, arzulamaq, törəmək azarına mübtəla olur. Qız onun istəyinə həvəslə qarşılıq verir. Onu da deyim ki, Zolya üçün bütün başqa pozitiv duyğular kimi sevgi də hər cür romantikadan, idealizmdən xali emosional-fizioloji hal, orqanizmdə baş verən bioloji təbəddülatların, kimyəvi reaksiyaların nəticəsidir.

Gözünü eşq pərdəsi örtən Paskal xalis gənclik şövqüylə ona qiymətli hədiyyələr daşıyıb gətirir, zinət əşyaları alır, reallıq duyğusunu itirib əlindəovcunda olan bütün ehtiyatını Klotildanın üzünü güldürməyə xərcləyir (doğrudur, sonralar dara düşəndə bu tələfxərcliyin altını çəkirlər). Nəhayət, gecikmiş eşq həvəsi doktora baha başa gəlir, Paskal əkdiyini becərmədən, ömrünün barını dərmədən can evini yerindən oynadan zəlzələnin dağıntıları altında qalır.

***

Təbiət qanunlarına səcdə qılan doktor Paskal nədən bu qanunu pozub öz qardaşı qızıyla insestual əlaqəyə girir, yaxud eyni pərəstişlə təbiəti özünə müəllim seçmiş yazıçı onu belə bir əmələ niyə təhrik eləyir? Burada hansısa dərin, gizli məna axtarmağa dəyərmi?

Ola bilsin, müəllif bununla Ruqonlara xas həris, yırtıcı həyat enerjisinin daha bir fəsadını bizə göstərmək istəyib. Eyni günaha "Yüz ilin tənhalığı" romanının sonunda da rast gəlirik, ancaq onun fəsadı da, cəriməsi də çox ağır olur. Markesdən fərqli olaraq Zolya bir azdan Freydin də psixoloji dəlillərlə çözməyə çalışacağı insest aktını günaha yozmağa can atmır, əksinə, bunu xoşxassəli şiş kimi, daim yenilənməyə, törəməyə çalışan həyatın təntənəsi kimi qələmə verir. Atasının ölümündən neçə ay sonra dünyaya gələn körpənin süd əməndə yuxarı qaldırdığı toppuş əlini göyə ucalmış həyat bayrağına bənzədir, bu körpə oğlancığazın gələcəkdə bir dahi, ya peyğəmbər olacağına gümanını, ümidini dilə gətirir. Markesin yüz il sonra qoparacağı qiyamət küləyi bu romanın üstündən əsmir, əsər (yəni bütövlükdə silsilə) Zolyanın yaradıcılığı üçün də xas olmayan sakit, hüznlü bir nikbinliklə, bayağı çıxmasa deyərdim ki, həyatın ölüm üzərində qələbəsiylə başa çatır. Hərçənd doktor Paskalın xəzan vurmuş bağında boy göstərən bu körpənin aqibətinin nə olacağı, həyatın ona yiyə durub-durmayacağı, durarsa, onun həyatdan nə umacağı hələ bilinmir.

Ola da bilsin, müəllif bu insestual aktla öz quyruğunu udan ilan sayağı Ruqon-Makkar nəslinin çevrəsini qapatmağa, bəşəriyyətin taleyi haqda yazdığı dastanı bitirməyə çalışıb. Əgər Monmartr qəbiristanlığındakı məzarından başını bircə anlığa qaldıra bilsəydi, deyərdi ki, ona qalsa, yer üzündə insanlar arasında hər cür cinsi təmas insestdir, çünki bütün bəşəriyyət bir ananın övladıdır. Əminəm ki, Zolya belə deyərdi. Həyatın qüdrətini, sevincini vəsf eləyən düşüncə üçün həyat bütün hallarda haqlıdır.



***F.Uğurlu***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




## ŞƏNBƏ ÜÇÜN NƏZM







**Xəyalə Sevil**

Vaxt lazımdı ki,
özümü cəmliyəm.
Nəyin var ki?
Sözünü tutmağın yox,
Məni yaxşı unutmağın
var sənin.
Ürəyimin heç
xeyrini görmədim,
Ürəyimdən topladığım bar sənin.

Bu gecə də özün yoxsan,
sözün var,
Sən bilməzsən,
susub danışmaq olur.
Salamımız, sağolumuz yerində,
Görürsənmi?
Küsüb danışmaq olur.

Mən indi hər şeyi
unudum gərək,
Geriyə qayıdım o boyda yolu.
Bu da taleyimin məndən aldığı,
Bu da taleyimin quru “sağ” olu.

Özümdən yüz dəfə üzr istəyim,
Özümü son dəfə bağışlayımmı?
Mən heç həyatımda bu qədər kinli,
Bu qədər amansız olmadım amma.

Mənim yerimdimi bu yer, İlahi?
Hər şeyə,
hamıya naşı düşmüşəm.
Ah, mənim
əvvəlki ağılsızlığım...
Hər şeyi sonradan
başa düşmüşəm.

***

Xəyalım xatirəni dolandı,
gəzdi, keçdi,
Yenə gözü açıq göründü yuxum.
Sevgimdən aldığın
o həzz də keçdi,
Mənim hamıdan
çox peşman olduğum.

Heç nə danışmıram
sənin haqqında,
Amma susmağım da
yaxşı hal deyil.
Saat geridədi, vaxt geridədi,
Bu da ömür deyil, eh,
yığval deyil.

İçim üzümdədi, əlim dizimdə,
Hələ üstü açıq qalıbdı yaram.
Zamanla bitəcək, amma hələ ki
Ən pis hisslər ilə xatırlayıram.

Səni harda başladım?
Harda bitirdim səni?
Çıxdım ürəyimin qapısınacan,
Ötürdüm səni.
Yolun yaxın olmasın.
Nə doğmamsan, nə yadım,
Əllərini üz, dedin,
Ümidini kəs, dedin,
Kəsdim,
Yeddi qapıya payladım.
Azın, çoxun qalmasın.
Ruh deyilsən, can deyilsən,
Həvəssən, bədəndən çıxdın.
Elə də sevmədim səni.
Ürəyimin zirvəsinə
Hərdən çıxdın...
Eh! Mənim də gizli-gizli
Darıxmağım olmasın.

***

İnnən belə sən də
lazım deyilsən,
Qırılmışam, tökülmüşəm,
qəmliyəm.
Sən ki mənim alın
yazım deyilsən,

## Ramazan ayı: 8-ci günün duası

Allahummərzuqni fihi rəhmətəl-əytami və it-amət- təami. Və ifşa əs-səlami və söhbətəl-kiram. Bitəvlikə ya məlcəəl-amilin.

**Tərcüməsi:**

İlahi, bu gün yetimlərə qarşı mehriban olmağı, ehtiyacı olanlara yemək verməyi, camaatla ucadan salamlaşmağı və kəramətli şəxslərlə dostluğu mənə nəsib et. Fəzl və bəxşişinə and verirəm, ey arzu edənlərin pənahı!

# Dünya ölkələri 8 Martı necə qeyd edir?

Qadınlar hər zaman gözəllik və ülvilik rəmzi kimi öz iradə və əzmləri ilə seçiliblər. Bu gün bəşəriyyət tarixində ən əlamətdar günlərdən biri olan 8 Mart Beynəlxalq Qadınlar Günüdür. 8 Mart hər il müxtəlif dünya dövlətlərində, eləcə də respublikamızda təntənəli şəkildə qeyd olunur.

Beynəlxalq Qadınlar Gününün qeyd olunmasında xüsusi məna var. İlk baxışdan elə təsir bağışlayır ki, sanki bu bayram xanımlara çiçək və hədiyyə almaq üçün təsis edilib. Ancaq günün tarixinə nəzər salsaq, görərik ki, 8 Mart heç də romantik hadisələr nəticəsində yaranmayıb. Bu günün əsasında qadının cəmiyyətdəki rolu və hüquqları uğrunda apardığı mübarizə dayanır.

## Qadınların mübarizə tarixi...

8 Mart əslində fəhlə qadınların daha yaxşı iş şəraiti tələbi ilə başladığı hüquqi mübarizənin başlanğıc tarixi olsa da, bu gün bütün dünya qadınları bunu bayram kimi qeyd edir. Məhz bu tarixin seçilməsi təsadüfi olmayıb. Belə ki, 1857-ci il martın 8-i ABŞ-ın Nyu-York şəhərində tikiş və ayaqqabı fabrikinin qadın işçiləri nümayişə çıxıblar. Onlar 10 saatlıq iş günü, işıqlı və rahat iş yeri, kişilərlə eyni maaş tələb ediblər. O zaman qadınlar sutka ərzində 16 saat işləyir, bunun müqabilində isə qəpik-quruş alırdılar. Polislər nümayişi dağıtmaq üçün işçilərə hücum edərək, fabrikin qapılarını bağlayıblar. Beləliklə, yanğın başlayıb və işçilər fabrikin qarşısında qurulan barrikadalardan keçərək qaça bilməyiblər. Nəticədə çoxu qadın olmaqla 129 işçi yanaraq həyatını itirib. Bununla da qadınların haqları uğrunda apardıqları mübarizəyə qanla yekun vurulub. İşçilərin cənazə mərasiminə 100 mindən çox insan qatılıb.

Bu hadisədən 53 il sonra, 1910-cu ildə Kopenhagendə İşçi Qadınların II Beynəlxalq Konfransı keçirilib. Almaniya Sosial Demokrat Partiyasının qadın qrupunun lideri Klara Setkin Beynəlxalq Qadınlar Gününün qeyd edilməsi ideyasını irəli sürüb.



### Bayramın qadağan olunduğu ölkələr

**Qeyd edək ki, Beynəlxalq Qadınlar Günü bir çox müsəlman ölkələrində qadağan olunub. Bunu onunla əsaslandırırlar ki, əslində, 8 Mart yəhudilər tərəfindən ortalığa atılan bir bayramdır və onların PURİM adlanan bayram günü ilə üst-üstə düşdüyü iddia olunur.**

## Dünya ölkələrində 8 Mart...

Fransada 8 Mart qadınlar günü bir o qədər də dəbdəbəli şəkildə qeyd olunmur. Fransızların xanımlarla bağlı əsas bayramı martın 7-də keçirilir. “Nənələr bayramı” adlandırılan bu gündə bəylər öz xanımlarını hədiyyələrlə sevindirirlər.

İsveçdə 8 mart bayramı günündə xanımlara bəxş olunan əsas hədiyyə gül və yaylıqdır. Məhz 8 Mart günündə bu hədiyyələrdən əldə olunan gəlir ölkədəki çoxuşaqlı anaların hesabına köçürülür.

İtaliyada xanımlar öz bayramlarını xüsusi təntənə ilə keçirirlər. Onlar müxtəlif əyləncə məkanlarında istirahət etdikdən sonra axşam əsasən kişilərin toplaşdığı restoranlara gedirlər. Həmin gün restoranlara giriş xanımlar üçün pulsuz olur.

Yunanıstanda “Babos” adlandırılan qadınlar bayramında gün ərzində bütün ixtiyar xanımlara verilir. Ənənəyə görə bayram günündə müvəqqəti səlahiyyətə sahib olan xanımlar öz sevgililərini və həyat yoldaşlarını su şırnağına tuturlar.

Çində 8 Mart Qadınlar Bayramı daha maraqlı qeyd olunur. Bayram günü qadınlar üçün qeyri-iş günü sayılır. Kişilər isə həmin gün həmişə olduğu kimi işə gedirlər. Ancaq kişilərin işi bununla bitmir. Bayram günündə bütün mətbəx işləri, ən başlıcası isə xörək hazırlamaq kişilərin birbaşa vəzifəsi və borcu sayılır.

Tacikistanda 8 Mart günü rəsmi olaraq “Analar günü” kimi qeyd edilir. Qeyri-iş günü sayılan bayram zəngin süfrə və hədiyyələrlə müşayiət olunur.

Litvada 8 Mart günü çox az qeyd edilir. Bu bayram ölkənin əsas etibarı ilə rusdilli əhalisi tərəfindən qeyd edilir. Litva başqa dövlətlərdən fərqli olaraq ümumiyyətlə, analar və qadınlar gününü qeyd etmir.

8 Mart gününü ən təntənəli formada qeyd edən ölkələr sırasında Vyetnam birinci sıralardadır. Belə ki, Vyetnamda bu günün qədim tarixi var. Vyetnam xalqı 8 martı Çınq bacılarının şərəfinə qeyd edirlər. Uzun illər əvvəl Çınq bacıları çinlilərə əsir düşməmək üçün özlərini çaya ataraq qəhrəmanlıq göstərib və adlarını tarixə yazdırıblar.

Qadınlar bayramı Rusiyada da böyük təmtəraqla keçirilir. Restoranlar və əyləncə mərkəzləri martın 8-də xanımların hesabına kifayət qədər böyük gəlir əldə edir.

Təkcə bu gün yox, hər gün üzünüz gülsün, əziz xanımlar. Bayramınız mübarək!

***Yeganə***






## Azercell-dən Beynəlxalq Qadınlar Gününə xüsusi təklif!

Lider mobil operatordan “Honor” cihazlarını əldə edən müştərilərə 2 ay boyunca 30 GB internet hədiyyə

Azercell Beynəlxalq Qadınlar Günü münasibətilə xüsusi kampaniyaya start verir. Belə ki, “Azercell Exclusive” və rəsmi diler mağazalarından “Honor” smartfonu və ya planşeti əldə edən bütün istifadəçilər 2 ay müddətinə 30 GB internet hədiyyə qazanacaqlar.

12.03.2025 tarixinədək qüvvədə olacaq kampaniya qiyməti 269 AZN-dən başlayan modellər üçün keçərlidir.

Qeyd edək ki, 30 GB hədiyyə internet paketi 2 ay boyunca hər 30 gündən bir avtomatik qaydada yenilənəcək.

Kampaniya haqqında ətraflı məlumat üçün: https://www.azercell.com/az/

Azercell bütün qadınları Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edir!

## “Bakcell” jurnalist xanımları 8 Mart münasibətilə təbrik edib

İnnovasiya və sürət lideri “Bakcell” jurnalist xanımları 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib. Şirkət 30-dan çox media nümayəndəsini bir araya toplayaraq, səmimi və qeyri-rəsmi görüş təşkil edib.




Görüşdə “Bakcell”in Korporativ Kommunikasiyalar üzrə direktoru Aysel Süleymanova media sahəsində peşəkarlığı, obyektivliyi və şəffaf informasiyanın yayılmasını təşviq edən bütün xanımları təbrik edərək bildirib: “Qadınların cəmiyyətdəki rolu və uğurları bizi ilhamlandırır. “Bakcell” olaraq biz qadınların peşəkar və şəxsi inkişafına dəstək verməyi prioritet hesab edirik. Onların potensialını reallaşdırması, yeni imkanlar qazanması və öz bacarıqlarını daha da inkişaf etdirməsi üçün daim yanlarında olmağa hazırıq”.

Həmçinin, tədbirdə xanımlar üçün floristika üzrə master klass keçirilib. Onlar güllərlə kompozisiya qurmağın incəliklərini öyrənib, öz unikal buketlərini hazırlayaraq kreativ yanaşmalarını nümayiş etdiriblər.

Qeyd edək ki, “Bakcell” yarandığı gündən media nümayəndələri ilə sıx əməkdaşlıq edərək, onların fəaliyyətini dəstəkləməyə və jurnalistlərin peşəkar inkişafına töhfə verməyə davam edir.

**“Bakcell” haqqında**

“Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda “Bakcell” üç milyondan çox müştərini yüksək innovativ, keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

“Bakcell” müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.




## Azercell mülki müdafiə sahəsində təşəbbüslərini genişləndirir

### Şirkət Mülki Müdafiə Gününə həsr olunmuş konfransda iştirak etdi

1 mart - Ümumdünya Mülki Müdafiə Günü münasibətilə Fövqəladə Hallar Nazirliyi (FHN) və Azərbaycan Milli Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə “Mülki müdafiə əhalinin təhlükəsizliyinin təminatıdır” mövzusunda konfrans keçirilib.

“Azercell Telekom” MMC-nin Təhlükəsizlik departamentinin Biznesin Dayanıqlılığı şöbəsinin rəhbəri Anar Mirzəyev tədbirdə “Əhalinin təhlükəsizliyində telekommunikasiyanın önəmi” mövzusunda təqdimat ilə çıxış edərək şirkətin təhlükəsizlik və fövqəladə hallara hazırlıq istiqamətində həyata keçirdiyi təşəbbüslər haqqında danışıb.

Qeyd edək ki, Azercell 2021-ci ildən etibarən FHN-nin Mülki müdafiə işinin təşkili Baş idarəsi ilə sıx əməkdaşlıq edir. Mobil operator mülki müdafiə üzrə təlimlər təşkil edir və onların daha geniş auditoriyaya əlçatan olması üçün proqramı onlayn formata keçirib. Bu təlimlər iş yerində və gündəlik həyatda təhlükəsiz davranış qaydalarını əhatə edir. Azercell bu təşəbbüsü yalnız daxili akademik platformasında deyil, həm də ictimaiyyət üçün açıq xarici platformalarda paylaşır.

Fövqəladə hallara hazırlıq çərçivəsində Azercell əməkdaşları mütəmadi olaraq mülki müdafiə məşqlərində iştirak edirlər. Həmçinin son illərdə şirkət mülki müdafiə dəstələri, texniki heyət və rəhbərlik ilə birlikdə alternativ formatda Biznesin Davamlılığı testləri həyata keçirib. Bu tədbirlərdə FHN-in Mülki müdafiə işinin təşkili Baş idarəsinin əməkdaşları da iştirak edərək dəstək göstəriblər.

“Dayanıqlı rabitə, təhlükəsiz həyat!” prinsipi əsasında Azercell dövlət qurumları və müvafiq strukturlarla birgə Böhran İdarətmə Qrupu (BİQ) layihəsi çərçivəsində müxtəlif təlimlər və testlər həyata keçirib.

Ümumdünya Mülki Müdafiə Günü münasibətilə Azercell əməkdaşları üçün maarifləndirici proqramlar, uşaqlar üçün xüsusi tədbirlər və rəsm müsabiqələri təşkil edərək təhlükəsizlik qaydalarına dair bilikləri artırılmasına töhfə verib.

Azercell, təhlükəsizliyi korporativ mədəniyyətinin ayrılmaz hissəsi kimi qəbul edir və bu sahədə fəaliyyətini “Təhlükəsizlik hər birimizin məsuliyyətidir!” şüarı ilə davam etdirir.

“Azercell Telekom” MMC və şirkətin fəaliyyəti haqqında daha ətraflı məlumat əldə etmək üçün rəsmi Azercell səhifəsinə daxil olun.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4857**
**Sifariş: 503**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova